Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası




# Mən məktəbə gedirəm

15 Sentyabr Bilik Günü münasibəti ilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait

**Bakı-2023**

Tərtibçi : Aynurə Əliyeva

İxtisas redaktoru və buraxılışa məsul: Şəhla Qəmbərova
*Əməkdar Mədəniyyət işçisi*

Redaktor: Ruhiyyə Məmmədli

**“Mən məktəbə gedirəm”** - 15 Sentyabr Bilik Günü münasibəti ilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / tərt.ed.: Aynurə Əliyeva; ix.red. və burax.məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.-Bakı, 2023.-s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2023.**

## Giriş

*Mən məktəbə gedirəm,*
*Sevinir, ellər gülür.*
*Qanadım yoxdur uçam,*
*Əlimdə güllər gülür...*

Müəllif: Rafiq Yusifoğlu

Tarix boyu elmə, biliyə yiyələnmək və onu tədris etmək şərəfli iş hesab olunub. Bəzən elm öyrənmək Allaha ibadət qədər əhəmiyyətlidir, deyirlər. Xalqımız ta qədimdən elmi, biliyi yüksək qiymətləndirmiş, öz övladlarının savadlanması üçün əllərindən gələn səyi əsirgəməmişdir. Azərbaycan elminin tarixində Nəsirəddin Tusi, Bəhmənyar, Abbasqulu Ağa Bakıxanov, Mirzə Kazımbəy, Firidun bəy Köçərli, Yusif Məmmədəliyev kimi yüzlərlə nəhəng alim və filosoflar olmuşdur ki, onlar dünya elminin inkişafına öz töhfələrini vermişlər.

Elm, təhsil hər bir xalqın, millətin müqəddaratında, normal sosial-mədəni standartların qərarlaşmasında müstəsna əməhiyyət kəsb edən strateji sahədir.

Hələ XII əsrdə dahi Nizami Gəncəvi demişdir: "Qüvvət elmdədir, başqa cür heç kəs, heç kəsə üstünlük eyləyə bilməz". Yəni bu elmlə məşğul olan insanın nə qədər dəyərli olduğunu, onun bəşəriyyət, cəmiyyət və özü üçün nə qədər faydalı olduğunu göstərir. Elm, təhsil sanki qaranlıqdan işığa gedən bir yoldur. Oxuyub elmə yiyələnmək, elm sahibi olmaq elə qaranlıqdan işığa çıxmaqdır. Yəni dünənə qədər ətraf mühit onun üçün qaranlıq, sehrli, dərk edilməz bir aləm idisə, bu gün o aydın sabahlara yol alır deməkdir.

Lap qədim zamanlardan mollalar və mirzələrin yanına dərs almağa gedən, ondan hərf öyrənən uşaqlar Əlifbanı öyrənib bitirən zaman onların bu uğuru ailədə yaxınları və mollaxanada müəllimləri tərəfindən sevinclə qarşılanır, əsl

bayrama səbəb olardı. Müəllimlərin də sevinci ən az tələbəsi qədər çox olardı. Hələ o vaxtlar bu əlamətdar gün qeyd olunar, müəllimə hədiyyələr alınardı. Şagirdin evində və məktəbdə bayram bu günümüzədək aktuallığını qoruyur. Elmin yeni-yeni inkişaf etdiyi bir dövrdə əlifbanı öyrənməyə bu qədər qiymət verilirdisə, günümüz XXI əsrdir və biz müasir dövrün insanlarıyıq. Buna görə də bu nöqteyi nəzərdən baxdıqda bu gün elmin hələ ilk pilləsində dayanan hər bir uşaq bilik əldə edir, illər keçdikcə daha yüksək təhsil alaraq daha çox uğur qazanır. Bu günümüz də eynilə keçmişdə olduğu kimi bu gözəl uğuru bayram kimi qeyd edir. "Bilik Günü" bayramı adı ilə.

Ölkəmizdə Bilik günü məktəblərdə dərslərin başladığı gün qeyd edilir. 2004-cü ilə qədər həmin gün sentyabrın 1-nə təsadüf edirdi. Lakin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 21 avqust 2004-cü il tarixli fərmanı ilə ölkəmizin bütün təhsil müəssisələrində dərslərin sentyabrın 15-dən başlanması qərara alınmış, beləliklə, həmin gün Bilik Günü elan edilmişdir. Bu gün -15 sentyabr Respublikamızın hər yerində "***Bilik Günü"*** kimi qeyd edilir, bütün təhsil və tədris müəssisələrində ilk günün sevinci yaşanır. Minlərlə övladımız bilik almaq, bacarığa yiyələnmək üçün məktəblərə, universitetlərə, peşə məktəblərinə və s. elm ocaqlarına gedirlər. Biz də f. Köçərli kitabxanası olaraq bu əlamətdar gün - Bilik günü ilə bağlı vəsait yazmağı özümüzə borc bildik. Vəsait iki hissədən ibarətdir. I hissə ***"Zülmətdə parlayan irfan işığı"*** adlanır və təhsil və təlimin insan həyatı üçün əhəmiyyətindən bəhs edir. II hissədə isə ***"Məktəbdir ən uca məqam"*** adlanır və "Bilik Günü" ilə bağlı keçiriləcək tədbirlərdən söhbət açılır.

“Bilik Günü” ilə əlaqədar olaraq, bir sıra tədbirlər: kitab müzakirəsi, oxucu konfransı, rəsm və şeir müsabiqəsi, icmal, dəyirmi masa, ədəbi-bədii gecə və s. keçirilə bilər. Günün önəmini və ümumiyyətlə elmin, təhsilin dövlətimiz və bəşəriyyət üçün vacibliyini gənc nəslə və şagirdlərə tanıtmaq məqsədilə kitabxanada kitab sərgisi təşkil olunmalıdır. Sərgiyə müxtəlif başlıqlarlar verilə bilər: “Zülmətdə parlayan irfan işığı”, “Məktəb hamı üçündür”, “Aydın sabahlara açılan pəncərə-məktəb”, “Ey hörmətli müəllim”, “Məktəbə get, dərs oxu”, “Mən məktəbə gedirəm”, “Məktəbdir ən uca məqam” , “Mənim ilk müəllimim”, “Məktəb yolları” və s. adlanır.

## Ulu öndər Heydər Əliyev təhsil haqqında

* Təhsil millətin gələcəyidir.

* Mən dünyada müəllimdən yüksək ad tanımıram.

* Bizim hər birimiz elmi dərəcəmizdən, biliyimizdən, təhsil səviyyəmizdən asılı olmayaraq, bütün nailiyyətlərimizə görə məktəbə, müəllimə borcluyuq.

* Mən Azərbaycanın sadə vətəndaşıyam. Bu addan yüksək ad yoxdur. Ancaq bundan da yüksək ad müəllimlikdir.

*Həyatını müəllimliyə həsr edən insanlar, həqiqətən, fədakar, xalqına, millətinə sədaqətli və eyni zamanda qəhrəmanlıq göstərən insanlardır.

*Azərbaycan müəllimləri ən yüksək mənəviyyata, vətəndaşlıq hisslərinə malik olan insanlardır.

* Müəllimlik sənəti şərəfli bir sənətdir.

* Bizdə təhsil çox inkişaf edibdir. Azərbaycanda, demək olar ki, təhsil almayan adam yoxdur.

* Məktəbin, müəllimlərin ən əsas vəzifəsi bizim cəmiyyətimizə, xalqımıza, ölkəmizə dəyərli vətəndaşlar hazırlamaqdır.

* Özünü müəllimliyə həsr etmiş insan ən şərəfli insandır.

* Biz hamımız həyatımızda əldə etdiyimiz nailiyyətlərə, bütün varlığımıza görə müəllimə borcluyuq.

* Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir. Cəmiyyət təhsilsiz inkişaf edə bilməz.

* Biz müstəqil dövlət olaraq özümüzün təhsil sistemimizi istədiyimiz kimi qururuq. İndiyə qədər yaranmış təməlin üzərində Azərbaycan təhsili, məktəbi bundan sonra daha da təkmilləşəcəkdir.

* Bu təhsil sisteminin nə qədər dəyərli olduğunu ondan görmək olar ki, Azərbaycanda yüksək savada, biliyə, ixtisasa, yüksək elmə malik insanlar var və onlar cəmiyyətin çox hissəsini təşkil edir. Əgər bunlar olmasaydı, Azərbaycanın iqtisadiyyatı belə güclü inkişaf edə bilməzdi. Bunlar olmasaydı, Azərbaycan elmi inkişaf edə bilməzdi. Bunlar olmasaydı, biz indi Azərbaycanı müstəqil dövlət kimi idarə edə bilməzdik. Onları qiymətləndirmək lazımdır və on illərlə əldə etdiyimiz nailiyyəti heç vaxt unutmamalıyıq.

* Təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib onları gələcəyə hazırlamaqdır. Hər bir insan gərək, eyni zamanda vətəndaş olsun. Mütləq vətəndaş olsun. Dövlətinə sadiq, millətinə sadiq, ənənələrinə sadiq, xalqına sadiq vətəndaş olsun.

*Məktəb, maarif, təhsil işi ilə həmişə sıx bağlı olmuşam... Hesab edirəm ki, cəmiyyət haradan olursa-olsun, nədən olursa-olsun kəsib təhsilə xərcləməli, gənc nəslin təhsilinə,

müəllimə kömək etməlidir. Bu, mənim prinsipial mövqeyimdir...

* Dövlət müstəqilliyinin xalqımıza bəxş etdiyi nemətlərdən biri də odur ki, biz artıq təhsil sistemimizi xalqımızın, millətimizin tarixinə, mənəviyyatına, ənənələrinə uyğun qururuq. Doğrudur, bu proses çox mürəkkəb prosesdir. Bu proses qısa müddətdə başa çata bilməyəcəkdir. Bu gün təhsil sahəsində çalışan bütün vətəndaşlara, müəllimlərə, təhsil müəssisələrinin rəhbərlərinə müraciət edərək xahiş edirəm ki, onlar tezliklə təhsil sistemində işlərin müstəqil Azərbaycanın prinsipləri əsasında qurulmasına nail olsunlar. Burada dərsliklərin dəyişilməsi, yeni dərsliklərin yaranması xüsusi əhəmiyyət kəsb edir. Bilirəm, bu, asan məsələ deyil. Bu, bir çox amillərlə bağlıdır, ondan asılıdır... Ancaq indi dərs alan uşaqlar, gənclər gərək mütləq və mütləq bizim yeni dərsliklər əsasında oxusunlar...

* Milli ideologiyamızı hər yerdə tətbiq etmək üçün məktəblərdə Azərbaycan xalqının tarixinin tədrisinə çox ciddi fikir vermək lazımdır... Gənclərimiz öz tarixini, öz tarixi keçmişini gərək yaxşı bilsinlər. Çünki mənəviyyatımız, gənclərin bugünkü və gələcək mənəviyyatı bununla bağlıdır.

**Görkəmli şəxsiyyətlərin elm, bilik, məktəb və müəllimlər haqqında söylədikləri :**

Müəllimlik çox şərəfli bir sənətdir. Həqiqi müəllim olmaq cəmiyyət üçün doğrudan da çox qiymətlidir.

**Heydər Əliyev,**
*Ümummilli lider*

Azərbaycanda təhsil sisteminin təkmilləşməsinə çox böyük diqqət göstərilir. Təhsil bizim gələcəyimizdir.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının prezidenti*

Müəllim şam kimidir, özü yanıb tükənərkən ətrafını işıqlandırır.

* *

Bir millət təhsil ordusuna sahib olmadıqca, döyüş meydanlarında nə qədər parlaq zəfərlər əldə etsə etsin, o zəfərlərin qalıcı nəticələr verməsi ancaq təhsil ordusuyla mümkündür.

**Mustafa Kamal Atatürk,**
*Türkiyə Cümhuriyyətinin qurucusu və ilk prezidenti*

Dünyada nə qədər kitab var belə
Çalışıb əlləşib gətirdim ələ
Oxudum, oxudum, sonra da vardım
Hər gizli xəznədən bir dürr çıxardım.

**Nizami Gəncəvi,**
*Şair, yazıçı, filosof*

Müəllim bir memar, ya mühəndisdir ki, insanların düşüncələrini, ağlını düzəldir.

**Atalar sözü**

Elmi bələkdən qəbrədək öyrənmək lazımdır.

**Sədi Şirazi,**
*Qəzəl janrının ən görkəmli nümayəndələrindən biri*

Elm sahilsiz bir dəryadır, alim isə sahilsiz dəryaya almış bir dəryadır.

**Mövlana Cəlaləddin Rumi,**
*Ədib, filosof*

Hər millətin tərəqqisi və fəaliyyətinin başlıca amili elm və əxlaqdır.

**Abdulla Şaiq,**
*Şair, yazıçı, dramaturq, publisist*

Kim ki, elm öyrənib tətbiq etmir, yeri əkib becərən, amma məhsulundan istifadə etməyən adama bənzəyir.

**Əlişir Nəvai,**
*Özbək əsilli şair, filosof*

Elm bir müharibə meydanını xatırladır. Yaradıcı alimlər ön cəbhədə olur və əsl döyüş də burada gedir. Arxa cəbhədə olanların vəzifəsi öndəkiləri silah-sursat və azuqə ilə təmin etmək, tutulmuş ərazilərdə səliqə-sahman yaratmaqdır.

**Əbu Turxan,**
*Filosof*

Elmi olub, ağlı olmayan adama elm əziyyət verər.

**Nuşirəvan Adil Xosrov,**
*Sasani hökmdarı*

Elmin cövhəri qızıl kimidir, köhnəldikcə təzələnir.

**Əvhədi Marağayi,**
*Azərbaycan filosofu, şair*

Məktəblərdə ən azı digər dərslər qədər tərbiyə və vətənpərvərlik üzərində də dayanılmalıdır ki, vətəni cənnətlərə çevirəcək sağlam ruh və sağlam xarakterli nəsillər yetişə bilsin.

**Əbdülfəttah Şahin,**
*Türk alimi və mütəfəkkiri*

Yaxşı kitab çox qiymətli xəzinədir.

**Həsən bəy Zərdabi,**
*Jurnalist, maarifçi, təbiətşünas*

Elm bir nur, cəhl zülmətdir.

**Mahmud Şəbüstəri,**
*Azərbaycan alimi, filosof,*

Atam məni bu dünyaya gətirib, amma müəllimim isə mənə bu dünyada həqiqi səadət yolunu tapmaqda yol göstərib.

**Aristotel,**
*Qədim yunan filosofu*

Dünyada hər şeyə dəyər vermək mümkündür, lakin müəllimin əməyinə əsla dəyər verilə bilməz. Elm ancaq xoşniyyətli insanların əlində olanda fayda verir.

**Sokrat,**
*Klassik yunan fəlsəfəsi nümayəndəsi*

Qədimdə insanlar elmi kamilliyə yetmək naminə öyrəndikləri halda, bu gün onu dünyanı fəth etmək naminə öyrənirlər. Mən bir çox şeyi müəllimlərimdən, bundan daha çoxunu isə şagirdlərimdən öyrəndim.

**Konfutsi,**
*Fəlsəfə, etika elmi banilərindən*

Tərbiyə – nəfslə, təhsil – biliklə bağlıdır. İnsan yetkinləşdikcə bu iki proses bir-birini tamamlayır.

**Viktor Hüqo,**
*fransız yazıçısı*

Elmi təfəkkürdə həmişə poeziya elementi olur.

**Albert Eynşteyn,**
*Fizika üzrə fəlsəfə doktoru*

Məktəbdə oxuduqları ilə kifayətlənənlər yalnız tərbiyəçiləri ilə danışa bilən uşaqlara bənzər.

**Volter, François-Marie Arouet,**
*Fransız yazar ve filozof*

Biliyin olmadığı yerdə nadanlıq özünü elm adlandırır.

**Corc Bernard Şou,**
*İrlandiya dramaturqu*

Hər bir cəmiyyətdə hər şeydən əvvəl elm və əxlaqı öyrənmək lazımdır.

**Epiktet,**
*Roma filosofu*

Xəyal qanadlarında uçan elm möcüzələr yaratmağa qadirdir.

**Faradey,**
*İngilis alimi*

İnsanlar iki qrupa bölünür: kitab oxuyanlar və kitab oxuyanlara qulaq asanlar.

**Bernar Verber,**
*Fransız yazıçısı*

Müəllim, bir zəkanı tamamilə hazır məlumatlarla dolduran təlimçi deyil, tələbələr öz özlərinə fikirlərini inkişaf etdirmələri üçün onları cəlb edən bir insan olmalıdır.

**Aleksis Karrel,**
*Fransız cərrah, bioloq*

Yer üzündə müəllimdən daha bir şərəfli peşə tanımıram.

**Sinoplu Diogen,**
*Yunan fəlsəfəçisi*

"Bilik Günü" ilə əlaqədar kitabxanada keçirilə biləcək tədbirlərdən biri də **konfransdır**. *"Azərbaycan məktəblərinə dövlət qayğısı"* başlıqlı konfransda elm adamları, təhsil işçiləri, müəllimlər, ali məktəb tələbələri və s. qonaqlar iştirak edirlər. Konfransda Azərbaycan təhsili tarixi, Azərbaycan məktəblərinin dünəni, bu günü və sabahı, ümumilikdə Azərbaycanda elm, təhsil və təlimə dair məsələr, eləcə də onun inkişaf yolu haqqında məlumat verilərək

müzakirə edilir. Konfransın ikinci hissəsində isə ali məktəb tələbələri məruzəçi qismində çıxış edirlər.

*Konfransı açıq elan edən kitabxanaçı bu əlamətdar gün, bilik, elm haqqında məlumat verir.*

**Kitabxanaçı**: Bağlı bir qapıya açar axtarsan,
Ancaq alimlərdə axtar, taparsan.

*Nizami Gəncəvi*

Bilik – insanın özü və onu əhatə edən aləm və bu aləmin amilləri haqqında məlumat toplusu. Bilik mühəndisliyi baxımından bilik formallaşdırılmış informasiyadır. Bilik praktiki fəaliyyət və peşəkar təcrübə nəticəsində alınan predmet sahəsinin qanunauyğunluqları olub (prinsipləri, əlaqələri, qanunları), həmin sahədə mütəxəssislərə məsələ qoymağa və həll etməyə imkan verir...

Tarixi mənbələr göstərir ki, Azərbaycanda ibtidai savad təlimi verən ilk məktəblərin yaranması yeni eranın əvvəllərinə təsadüf edir. VII əsrdə artıq təhsil sistemi formalaşmaqda idi.

Daha sonralar inkişaf elə bir səviyyəyə çatmışdı ki, X-XIII əsrlərdə Azərbaycanın bir çox şəhərləri, o cümlədən Təbriz, Marağa, Gəncə, Naxçıvan, Şamaxı, Ərdəbil Şərq aləmində elm, təhsil, incəsənət və mədəniyyət mərkəzləri kimi tanınırdı.

Eramızın XIII-XIV əsrlərində təhsil və elm sahəsindəki canlanma və inkişaf, bir sıra tanınmış təhsil ocaqlarının fəaliyyəti diqqəti cəlb edir. Onlardan Təbrizdə "Qazaniyyə", "Fələkiyyə", "Şeyx Kəmaləddin Xocəndi", "Dəməşqiyyə", "Qazi Şeyx Əli", "Məqsudiyyə", "Müzəffəriyyə", "Nəsriyyə" mədrəsələri geniş fəaliyyət göstərmişlər. Şənbi-Qazanda "Şəfeiyyə" və "Hənəfiyyə" mədrəsələri olmuşdur. Bakıda "Şah məscidi" yanında mədrəsə, Seyid Yəhya mədrəsəsi, Ərdəbildə Şeyx Səfi məqbərəsi nəzdindəki "Darül-irşad",

Dərbənddə məhəllə məscidi yanındakı mədrəsənin fəaliyyəti daha qabarıq şəkildə özünü büruzə verirdi.

***İçərişəhərdə mədrəsə***

Bu dövrdə orta təhsillə yanaşı, geniş ərazidə tanınmış ali təhsil müəssisələrinin də fəaliyyət göstərdiyi xəbər verilir. Təbrizdə "Rəbi-Rəşididə" darülfünunu Yaxın və Orta Şərqin ən böyük təhsil ocağı idi. Bu ali məktəbdə 7 min tələbə təhsil alırdı. Burada Çin, Hindistan, Misir və Suriyadan dəvət olunmuş 500 nəfər alim tədris işilə yanaşı, həm də əhalinin müalicəsilə məşğul olmuşlar. Darülfünunda təbiətşünaslıq, fəlsəfə, tarix, təbabət, nücum, məntiq, ilahiyyat şöbələri fəaliyyət göstərirdi. Bu müəssisə həm də zəngin kitabxanası ilə də sayılır, seçilirdi. Tədris ərəb, fars və Azərbaycan dillərində aparılırdı.

Parisdə təhsil alan azərbaycanlı tələbələr, 1920-ci il XVI-XVII əsrlərdə elmlə yanaşı təhsil də inkişaf etmiş, bir sıra yeniliklər baş vermişdir. Keçən əsrlərdə olduğu kimi, bu dövrdə də təlim-təhsil məsələlərinə din xadimləri rəhbərlik edirdi. Tələbələr yenə də məscidlərdə, şəxsi evlərdə təşkil edilən məktəb və mədrəsələrdə təhsil alırdılar. Uşaqlar əvvəlcə ana dilində, yuxarı siniflərdə isə ərəb və fars dillərində təhsillərini davam etdirirdilər. Əlifbanı tamam-kamal öyrəndikdən sonra "Quran"ı əzbərləyirdilər. Təhsil ocaqlarında ilahiyyat dərsi geniş tədris edilsə də, ictimai və təbiət elmləri də keçilirdi. Eyni zamanda astronomiya və riyaziyyat elmlərinin tədris edilməsi barədə də xəbər verilir. XVIII əsrdə Təbrizdə 600 məhəllə məktəbi və 47 mədrəsə, Şamaxıda 40-a qədər məktəb və 7 mədrəsə, Ərdəbildə Şeyx Səfi məqbərəsində xüsusi mədrəsə fəaliyyət göstərmişdir.
XVIII əsrdə olduğu kimi, XIX əsrin əvvəllərində də təhsil müsəlman ruhanilərinin təsir dairəsində idi. Məscidlərin və

digər dini ocaqların nəzdində məktəb və mədrəsələr yetərincə fəaliyyət göstərirdi. Çoxillik ənənəvi təhsil öz işini, inkişafını davam etdirirdi. Lakin zamanın tələbinə uyğun olaraq qabaqcıl və daha mütərəqqi təhsilə böyük ehtiyac duyulurdu. 1829-cu ildə təqdim olunan təhsil nizamnaməsi bu vacib məsələni bir qədər də tezləşdirdi. Tədricən Gəncə, Qazax, Şəki, Şuşa, Naxçıvan, Ordubad, Şamaxı, Bakı, Quba, Lənkəran və digər qəza məktəbləri yarandı və fəaliyyətə başladı. Bu ikisinifli məktəblərdə şəriət, qiraət, hüsnxət, hesab, rus və Azərbaycan dili tədris edilirdi.

***İbtidai təhsil***

İbtidai təhsilin məqsədi uşaqlarda oxumaq, yazmaq və hesablama qabiliyyəti yaratmaq, onlarda insan, cəmiyyət və təbiət haqqında ilkin həyati biliklər, məntiqi təfəkkür elementləri, estetik, bədii zövq və digər xüsusiyyətləri formalaşdırmaqdan ibarətdir. İbtidai təhsil müvafiq təhsil proqramına (kurikulumuna) əsasən həyata keçirilir. Azərbaycan Respublikasında ibtidai təhsil altı yaşdan başlayır və birinci-dördüncü sinifləri əhatə edir.

***Ümumi orta təhsil***

Ümumi orta təhsilin məqsədi şagirdlərdə şifahi nitq və yazı mədəniyyətinin, ünsiyyət bacarığının, idrakı fəallığın və məntiqi təfəkkürün formalaşmasını, təhsil proqramına (kurikulumuna) daxil olan fənlər üzrə və eləcə də dünya sivilizasiyasının inkişafı haqqında müvafiq bilik və təsəvvürlərin yaradılmasını, müasir informasiya-kommunikasiya vasitələrindən istifadə etmək qabiliyyətini, hadisələri qiymətləndirmək və öz gələcək fəaliyyət istiqamətini müəyyənləşdirmək bacarığını təmin etməkdən ibarətdir. Ümumi orta təhsil beşinci-doqquzuncu sinifləri əhatə edir. Azərbaycan Respublikasında ümumi orta təhsil icbaridir. Ümumi orta təhsil pilləsində yekun qiymətləndirmə

aparılır və təhsili başa vuran şagirdlərə müvafiq dövlət sənədi - attestat verilir. Ümumi orta təhsil haqqında sənəd təhsilin növbəti pillədə davam etdirilməsi üçün əsas sayılır

***Tam orta təhsil- Orta təhsil haqqında Attestat***

Tam orta təhsil pilləsində şagirdlərin istedad və qabiliyyətinin reallaşdırılması, onların müstəqil həyata və peşəseçməyə hazırlanması, fəal vətəndaş mövqeyinin formalaşdırılması, milli və ümumbəşəri dəyərlərə, insan hüquq və azadlıqlarına hörmətlə yanaşması və tolerantlığı, xarici dillərdən birində, yaxud bir neçəsində ünsiyyət saxlaması və s. təmin olunur. Tam orta təhsil ümumi orta məktəb təhsilinin hər üç pilləsini əhatə edən təhsil proqramlarının (kurikulumların) tam mənimsənilməsini nəzərdə tutur. Tam orta təhsil pilləsində təhsilin təmayülləşməsi (humanitar, texniki, təbiət və digər) təmin olunur.

Tam orta təhsil ümumi orta məktəb təhsilinin sonuncu pilləsi olaraq onuncu - on birinci sinifləri əhatə edir və bu pillədə təhsil alanların biliyinin qiymətləndirilməsinin yekun dövlət attestasiyası həyata keçirilir. Attestasiyanın nəticəsinə görə məzunlara müvafiq qaydada dövlət nümunəli sənəd - attestat verilir. Tam orta təhsil haqqında sənəd təhsilin növbəti pillədə davam etdirilməsi üçün əsas sayılır.

İlk məruzəçi **“Prezident İlham Əliyev elmə, təhsilə diqqət və qayğı göstərir” adı altında çıxışına keçid alır.**

**I Məruzəçi: -** Azərbaycan təhsili bütün dövrlərdə dövlətin diqqət və qayğısını hiss edib. Xüsusilə, ölkəmiz milli müstəqillik əldə etdikdən sonra ümummilli liderimiz Heydər Əliyevin dönəmində təhsil sahəsinə xüsusi diqqət yetirilmişdir. Ulu öndərimiz qeyd etdiyi kimi, təhsil millətin gələcəyidir. Millətimizin gələcəyi olan təhsil sahəsi hər

zaman ulu öndərin diqqət və qayğısını hiss edib. Onun 30 mart 1998-ci il tarixli sərancamı ilə ölkəmizdə təhsil sahəsində beynəlxalq standartlara uyğun islahat keçirilməsini müəyyənləşdirən proqramın hazırlanmsı məqsədi ilə Dövlət Komissiyası yaradıldı. Bundan əlavə, Heydər Əliyevin “Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında” 13 iyun 2000-ci il tarixli fərmanı müstəqil Azərbaycanda ali təhsilin inkişafı və təşkilində keyfiyyətcə yeni bir mərhələnin başlanğıcı oldu. Ümummilli lider Heydər Əliyevin layiqli davamçısı, Prezident İlham Əliyev cənabları da elm, təhsil sahəsinə hər zaman diqqət və qayğı göstərib. Bu gün dövlət büdcəsindən təhsil sahəsinə ayrılan maliyyə vəsaiti hərbi sahədən sonra ikinci yerdədir. Bunun da nəticəsində respublikamızda elm, təhsil sürətlə inkişaf etməkdədir. Ölkəmizin təhsil sistemi MDB məkanında ən irəlidə gedən təhsil sistemidir. Əminliklə deyə bilərik ki, təhsilimizin dünya təhsil sisteminə inteqrasiyası üçün lazımi şərait yaradılıb. Ölkə başçısı İlham Əliyevin “Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı proqramı” na dair fərmanı təhsil sahəsində görülmüş işlərin bir nümunəsidir. Onu da qeyd etmək lazımdır ki, Heydər Əliyev Fondu və bu fondun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyeva daima təhsilin inkişafına böyük töhfələr verməkdədir. Belə ki, ulu öndərin adını daşıyan fondun maliyyə vəsaiti hesabına respublikamızda onlarla təhsil müəssisəsi təmir edilib, tikilib istifadəyə verilib. Bu da onu göstərir ki, Azərbaycan təhsili hərtərəfli qayğı ilə əhatə olunub. Bundan əlavə, ötən il Azərbaycanda "Təhsil haqqında" qanun qəbul edildi. Yeni təhsil qanununun qəbul edilməsi bir daha onu göstərir ki, ölkə

rəhbərliyi təhsilin inkişafında maraqlıdır. Qeyd olunan qanunun qəbulundan sonra, təhsil sahəsində çox yeniliklər baş verdi. Bu yeniliklər də ondan ibarətdir ki, müəllimlər işlərini yenidən qururlar. Ən böyük yeniliklər ondan ibarət oldu ki, təhsilin aspirantura pilləsi ləğv olundu və doktorantura ilə əvəzləndi. Bundan əlavə, "elmlər namizədi" alimlik dərəcəsi "fəlsəfə doktoru" ilə əvəzləndi. Təhsilimizin işıqlandırılması üçün yazılan məqalələrin və dərsliklərin, tərtib olunan proqramların müasir tələblərə cavab verməsi istiqamətində çox böyük işlər görülür. Ona görə də, hesab edirəm ki, ölkə təhsili uğurlu bir yoldadır.

- Ölkə başçısı İlham Əliyev ali təhsil müəssisələrində yeni maliyyələşdirmə mexanizminin tətbiq edilməsi barədə fərman imzalayıb. Prezident İlham Əliyevin bu qərarını təhsil işçiləri, ümumiyyətlə, respublika ictimaiyyəti yüksək qiymətləndirir. Hazırda planlaşdırma getməlidir ki, ölkədə hansı ixtisaslar üzrə kadrlara ehtiyac var. Hər dövrdə müəyyən bir istiqamət müəyyənləşdirilir. İstər Nazirlər Kabinetində, istərsə də Təhsil Nazirliyində bu istiqamətdə işlər müzakirə edilir və konkret təkliflər də mövcuddur. Hesab edirəm ki, hazırda Azərbaycanda çoxlu sayda ali təhsil müəssisələri fəaliyyət göstərir. Bəzən isə, onlar arasında əlaqə lazımi səviyyədə getmir. Ölkəmizdə dövlət ali məktəbləri ilə yanaşı, özəl təhsil ocaqları da mövcuddur. Hazırda Azərbaycan dövləti müəyyənləşdirir ki, hansı təhsil ocağında, hansı ixtisaslar üzrə kadr hazırlamağa imkan var və onun maliyyəsi ilə məşğul olur.

Gənc alimlərin xaricdə təhsil almasına dair Prezident İlham Əliyevin fərmanı Azərbaycanda elmin inkişafına müsbət təsir göstərir. Belə ki, gənclərin təhsilin 3 pilləsi üzrə (bakalavr, magisturatura, doktorantura) xaricdə təhsil almaları vacib bir məsələdir. Hələ Sovet hakimiyyəti

dönəmində ulu öndər Heydər Əliyevin qayğısı ilə 1970-80-ci illərdə yüzlərlə azərbaycanlı gənc, SSRİ-nin böyük təcrübəyə malik ali məktəblərinə təhsil almağa göndərildi. Həmin illərdə keçmiş SSRİ-nin ən mühüm ali məktəblərində Azərbaycan üçün 17 mindən artıq yüksək ixtisaslı mütəxəssis hazırlanmışdı. Yəni gənclərin xaricdə təhsil alması məsələsi ümummilli liderin sovet dönəmində, Azərbaycana rəhbərliyi dövründə də mövcud idi. Sevindirici haldır ki, bu uğurlu iş bu gün ölkə başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Hazırda onlarla gəncimiz xaricdə - Avropanın bir çox nüfuzlu universitetlərində təhsil alırlar. Prezidentimizin gənc alimlərin xaricdə təhsil alması ilə bağlı fərmanı da Azərbaycan elminə, təhsilinə misilsiz töhfədir.

Prezident İlham Əliyev, mütamadi olaraq, istər təhsil, istərsə də elmlə bağlı qərarlar verir. İlk öncə, onu qeyd etməliyəm ki, elm və təhsil sahəsində işlərin qurulması ilə bağlı milli proqram hazırlanıb. Etiraf etmək lazımdır ki, elm sahəsində müəyyən problemlər mövcuddur. Elə etmək lazımdır ki, Azərbaycan elmi daha da inkişaf etsin və aparılan elmi-tədqiqat işləri müasir dövrün tələblərinə cavab versin.

İkinci iştirakçı **“Azərbaycan təhsili tarixindən nüanslar” adlı çıxışına keçid alır**. O, öz çıxışına ümummilli lider Heydar Əliyevin sözlərindən sitat söyləyərək iştirakçıları məlumatlandırır.

**II Məruzəçi: -**"Azərbaycan təhsili, məktəbləri sona çatmış XX əsrdə çox böyük nailiyyətlər əldə edib. Əsrin əvvəllərində Azərbaycanın mütəfəkkir şəxsləri, maarifçiləri, ziyalıları, müəllimləri xalqımızı savadsızlıqdan, ətalətdən çıxarmaq, maarifləndirmək, təhsili inkişaf etdirmək üçün bir çox işlər görmüşlər. Əgər Azərbaycan Respublikasının təhsil

tarixi yazılsa, - bu tarix yazılmalıdır, - şübhəsiz ki, hər mərhələdə görülən işlər orada əksini tapacaq və tapmalıdır".

Ümummilli lider Heydər Əliyev

Bəşər sivilizasiyasına böyük töhfələr bəxş etmiş Azərbaycan xalqı özünün zəngin maarifçilik ənənələri, pedaqoji fikir tarixi ilə qürur duyur. Müsəlman Şərqini əhatə edən böyük coğrafi-siyasi məkan üzrə ilk demokratik, hüquqi və dünyəvi dövlətin məhz Azərbaycanda elan edilməsi, ilk operanın, mütərəqqi ruhlu mətbuatın, Avropa tipli universitetin respublikamızda yaranması hər birimizin milli iftixar yeridir.

Ötən əsrin əvvəllərindən çoxsaylı nailiyyətləri ilə tarixdə yenilikçi statusunu sabitləşdirən Azərbaycanın qabaqcıl mövqeyi maarifçilik hərəkatının - təhsilin zəngin milli ənənə və müasirliyin uğurlu sintezi əsasında inkişafı sahəsində də özünü qoruyur. Əsrlər boyu müxtəlif təkamül və inkişaf mərhələlərindən keçərək cilalanan bu ənənələr respublikada pedaqoji təhsilin inkişafına layiqli töhfələr vermiş, cəmiyyətdə sayılıb-seçilən intellekt mərkəzlərinin formalaşmasını, adları tarixə qızıl hərflərlə yazılmış dəyərli ziyalılar nəslinin yetişməsini təmin etmişdir.

Milli təhsil sisteminin inkişaf tarixi, müxtəlif mərhələlər üzrə keçdiyi keşməkeşli, çətin yolun uğurları o qədər maraqlı və çoxşaxəlidir ki, bu prosesə hər bir müəllif baxışı yeni həqiqətlərə parlaq işıq salmaqla yanaşı, tərəqqiyə xidmət edən təkliflərə, ideyalara, mülahizələrə yol açır. Azərbaycanın dövlət müstəqilliyinin bərpasından ötən 20 ildən artıq müddətdə respublikada təhsilin inkişaf perspektivlərinə, uğur və problemlərinə həsr olunmuş onlarla kitab və monoqrafiyanın, elmi məqalənin qələmə alınması da bu fundamental sahənin milli inkişafdakı müstəsna rolu ilə şərtlənir. Hər bir elmi yanaşma milli təhsilin optimal inkişaf

istiqamətlərinin müəyyən edilməsi, problemlərinin həlli ilə bağlı maraqlı yanaşmaları aşkara çıxarır.
Azərbaycan Respublikasının təhsil naziri, əməkdar elm xadimi, professor Misir Mərdanovun 2011-cı ildə "Təhsil" nəşriyyatında nəfis tərtibatla çapdan çıxmış üçcildlik "Azərbaycan təhsil tarixi" kitabı milli təhsil sisteminin tarixi inkişaf yolunun sanballı salnaməsi olmaqla yanaşı, əhatə dairəsinə, ideya məzmununa, təhsil problemlərinə analitik və rasional yanaşma üslubuna görə diqqəti çəkən əsərlərdəndir. İndiyə qədər pedaqoji fikir tariximizin bir çox tanınmış simaları təhsilin ayrı-ayrı mərhələlərini araşdırma predmetinə çevirsələr də, ilk dəfə olaraq məhz bu çoxcildlikdə milli təhsil tarixi əhatəli və sistemli şəkildə oxuculara təqdim olunur. Əsər ideya dəyəri ilə indiyə qədər təhsil mövzusuna həsr olunmuş bir sıra nəşrlərdən müsbət mənada fərqlənir, müəllifinin zəngin təcrübəsini, iş prosesində qarşılaşdığı suallarla bağlı gərgin tədqiqatlarını, bu və digər problemlərə elmi yanaşmalarını nümayiş etdirir.

Elmi-praktik əhəmiyyəti, faktoloji zənginliyi, mövcud problemlərə, çatışmazlıqlara obyektiv münasibəti, təhsilin inkişafının milli modelinin əsaslandırılması kimi mütərəqqi cəhətləri ilə maraq doğuran fundamental tədqiqat əsərində milli maarifçilik hərəkatının keçmişinə, bügününə və gələcəyinə konseptual əsasda nəzər salınmışdır. Müəllifin təhsil sisteminin uğurlarına, problemlərinə obyektiv yanaşması, onları açıq demək, optimal həlli yollarını göstərmək mövqeyi tutması ilk baxışdan diqqəti çəkir. Müxtəlif elmi məqalələrində, çıxışlarında, bir sıra kitablarında toxunduğu məsələlərin konseptual ümumiləşdirməsini aparan müəllif təhsillə bağlı çoxlu sayda yeni ideya və mülahizələri sistem halında, ardıcıllıqla

araşdırma obyektinə çevirmiş, əhəmiyyətli təhlillərə, müqayisələrə yer ayırmışdır.

Çoxcildlik vasitəsilə oxucu fasiləsiz təhsilin bütün mərhələlərini pillə-pillə izləmək, bu mərhələlər arasındakı üzvi bağlılığı, qarşılıqlı əlaqəni öyrənmək, müqayisə əsasında real nəticələr çıxarmaq imkanı əldə edir. Görkəmli maarif fədailərinin, mütəfəkkirlərin, pedaqoqların həyatı, onların xalqın maariflənməsi yolunda, qeyri-bərabər mübarizədə göstərdikləri dözüm və cəsarət haqqında qısa oçerklər xüsusilə maraq doğurur. Bu baxımdan çoxcildliyi həm də təhsil tariximizin publisistik dillə qələmə alınmış ensiklopediyası adlandırmaq mümkündür. Müəllifin kitabda əksini tapmış təhsil islahatlarının fəal iştirakçısı olması əsərin həyatiliyini, gerçəkliyini müəyyən edən mühüm göstəricidir. Əsərin yazılmasında memuar janr çalarlarından da istifadə olunmuşdur.

Çoxcildlikdə verilən yeni materiallar, arxiv sənədləri, şəkillər, qədim məktəblərin tarixi ilə bağlı məlumatlar, Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin məzunlarının və bolşevik diktaturasının qurulması ərəfəsində yaşayıb-yaratmış 400-dən çox Azərbaycan ziyalısının adı toplanmış siyahı milli təhsil tariximizin təhrif edilmiş səhifələrinin bərpası baxımından əhəmiyyətli sayıla bilər.

"Azərbaycan təhsil tarixi" əsərinin I cildi ən qədim dövrlərdən Azərbaycan Xalq Cümhuriyyətinin süqutuna - 1920-ci ilin aprel işğalına qədər olan tarixi əhatə edir. Bu böyük zaman kəsiyində təhsilin keçdiyi yolun bütün mərhələləri - qədim məktəblərin, dini və dünyəvi təhsil ocaqlarının yaranması, ilk dərslik nümunələrinin meydana gəlməsi, ümumilikdə Azərbaycan xalqının milli mədəniyyət tarixində təhsilin yeri ardıcıllıqla, dolğun, əhatəli şəkildə göstərilmişdir. Müəllif I cildin ön sözündə haqlı olaraq qeyd

edir ki, milli təhsil quruculuğunda tarixilik, varislik və müasirlik prinsipinə əsaslanmaqla, yəni ötən əsrlərdə xalqımızın təhsil sahəsində malik olduğu zəngin irsi, maarifçi ziyalıların və görkəmli şəxsiyyətlərin mütərəqqi ideya və fikirlərini öyrənməklə, onlardan müasir dövrün tələblərinə uyğun bəhrələnməklə böyük nailiyyətlər əldə etmək mümkündür.
Tədqiqat əsərinin hazırlanmasında tədqiqatçı alimlərin "Şərqdə təhsillə bağlı humanist, demokratik fikirlər Qərbdən xeyli əvvəl formalaşmış və inkişaf etmişdir" - fikri metodoloji əsas kimi götürülmüşdür. Kitabın "Qədim və orta əsrlərdə Azərbaycanda təhsil" adlanan I fəslində ilkin nişanələri Gəmiqaya, Oğlanqala, Kültəpə və Qobustandakı daş kitabələr üzərində günümüzədək gəlib çatan yazı və oxu mədəniyyətimizin keçdiyi tarixi yola nəzər salınır. Həmçinin qeyd olunur ki, böyük tarixə və zəngin mədəniyyətə malik olan, coğrafi cəhətdən türk-islam dünyasının mərkəzində yerləşən Azərbaycanın sakinləri hələ qədim zamanlardan yazı və oxu mədəniyyətinə sahib olmuşlar. Bu fəsildə oxuyuruq: "Miladdan əvvəl birinci minilliyin başlanğıcında Azərbaycan ərazisində yaşayan qədim tayfalardan olan Mannada elmin və təhsilin inkişafı üçün ən vacib şərt olan yazı mədəniyyəti mövcud idi. Tibb, astronomiya və həndəsəyə aid biliklər xüsusi gil lövhəciklərdə mixi yazı ilə (xüsusi heroqliflərlə) həkk olunurdu... Roma və yunan mənbələri Midiyada yazılı ədəbiyyatın və kitab mədəniyyətinin olmasından xəbər verir. E.ə. VI-V əsrlərdə yunan alimləri Midiya maqlarının təlimindən bəhrələnmişlər". Bu yurdun ziyalıları dövrün, ictimai həyatın xüsusiyyətlərinə uyğun təhsil ocaqları yaratmış, soydaşlarını inkişafa, tərəqqiyə, yüksək əxlaqa səsləmişlər. Əsərdə "Avesta"dan bəhs olunur, run, göytürk, ərəb əlifbalarının, IV

əsrdə Qafqaz albanlarının 52 hərfdən ibarət əlifbasının yaranma tarixindən söz açılır.

Müəllif Azərbaycanda ilk savad verən məktəblərin mövcudluğunu, VI-XIV əsrlərdə bu məktəblərin bütün dünyada məşhurlaşdığını, XVI-XVIII əsrlərdə Azərbaycan təhsilində milliləşmə meyillərinin inkişaf etdiyini yazır. İlk cildin "XIX əsrdə Azərbaycanda təhsil" adlanan fəslində isə XIX əsrdə ölkədə Avropa tipli təhsil sisteminin formalaşdığı vurğulanır. Müəllifin fikrincə, XIX əsrin əvvəllərindən Azərbaycanda xalq maarifi və məktəb işi sahəsində yeni mərhələnin başlanması ölkə gənclərinin həyatında əhəmiyyətli dəyişikliklərə səbəb olmuş, çarizmin subyektiv məqsədlərindən asılı olmayaraq, xalq maarifi və məktəb sahəsində bir sıra pozitiv nəticələrə gətirib çıxarmışdır. II fəsildə həmçinin qeyd olunur ki, bu tarixi mərhələdə Çar Rusiyasındakı maarifçilik hərəkatının Azərbaycana təsiri də qabarıq duyulmuş, yeni məktəblərin, qəzaların, mədrəsələrin açılması istiqamətində ilk addımlar atılmışdır. Milli məktəb, milli dərslik, milli tərbiyə problemlərini həll etməyə qadir görkəmli ziyalıların yetişdiyini yazan professor Misir Mərdanov bu sırada Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundzadə, Mirzə Kazım bəy, Mirzə Şəfi Vazeh, Həsən bəy Zərdabi və digər şəxsiyyətlərin xidmətlərini ön plana çəkir. Eləcə də həmin dövrdə yetişən milli burjuaziya nümayəndələrinin, mesenatların, xüsusilə də Hacı Zeynalabdin Tağıyevin, Şəmsi Əsədullayevin, Murtuza Muxtarovun, Musa Nağıyevin, İsmayıl bəy Hacınskinin millətin maariflənməsi, savadlanması, mədəni və intellektual səviyyəsinin yüksəlməsi yolunda atdıqları əzmkar addımlardan, xeyriyyəçilik tədbirlərindən geniş söhbət açılır. Birinci cildin "XX əsrin əvvəllərində Azəbaycanda təhsil" adlanan III fəslində XIX əsrin sonu XX əsrin əvvəllərində

ölkədə rus dilində orta və ali təhsil görmüş azərbaycanlı gənclərdən ibarət ziyalı təbəqəsinin formalaşması faktına xüsusi toxunulur. Bu fəsildə həmçinin Azərbaycanın onlarla görkəmli ziyalısının Avropanın, Türkiyənin, Rusiyanın ali təhsil müəssisələrində yüksək təhsil alması, yeni məktəblərin açılması, Azərbaycan müəllimlərinin ilk qurultayının keçirilməsi, qadınlar üçün dünyəvi məktəblərin açılması, ruhani mədrəsələri əleyhinə çağırışların güclənməsi və sair məsələlər barədə maraqlı faktlar yer almışdır.

Əsərin son fəsli Azərbaycan Xalq Cümhuriyyətinin təhsil sahəsindəki milli siyasətinin şərhinə həsr olunmuşdur. Müəllif konkret faktlar əsasında göstərir ki, müsəlman Şərqinin ilk demokratik, dünyəvi dövləti xalq maarifinin, elm və mədəniyyətin inkişafını milli dövlət siyasətinin təməl prinsiplərindən biri kimi ön plana çəkmiş, ilk aylardan təhsil sahəsində köklü islahatlara başlamışdır. Kitabda həmin dövrdə maarif işinin yüksək səviyyədə təşkili, tədris və teatr müəssisələrinin milliləşdirilməsi, yeni tədris müəssisələrinin açılması, orada dərs deyən müəllimlərin maddi vəziyyətinin yaxşılaşdırılması məsələlərinə də diqqət çəkilir. Xalq Maarifi Nazirliyinin yaradılması və fəaliyyəti, yeni məktəblərin, pedaqoji kursların açılması, müxtəlif dərsliklərin nəşri, azərbaycanlı gənclərin xaricə ali təhsil almağa göndərilməsi, xüsusilə də Bakı Dövlət Universitetinin açılması haqlı olaraq Cümhuriyyət hökumətinin bu sahədəki uğurlu fəaliyyəti kimi təqdim olunur.

"Azərbaycan təhsil tarixi" əsərinin II cildində ölkənin təhsil tarixinin 1920-1991-ci illəri əhatə edən dövrü tədqiq olunmuş, sovet hakimiyyəti illərində təhsil quruculuğunun spesifik cəhətləri, uğur və çatışmazlıqları elmi-politoloji rakursda təhlil edilmişdir. Müəllif sovet təhsil sisteminə münasibətdə müəyyən inkarçı və nihilist yanaşmanı düzgün

saymayaraq bu qənaətini oxucu ilə bölüşür ki, keçmiş rejimin ideoloji buxovlarına, repressiyalarına, milli ruha qarşı total hücumlarına baxmayaraq, həmin dövrdə Azərbaycanın təhsil sistemi inkişaf etmiş, savadsızlıq aradan qaldırılmış, görkəmli ziyalılar nəsli formalaşmışdır. "Əks halda, 90-cı illərdə imperiya hakimiyyətinin təzyiqi bir az zəifləyən kimi zamanın diktə etdiyi təhsil siyasəti əsasında tərbiyə almış millətimizin indiki nəsli milli ruhla azadlıq mübarizəsinə qalxardımı? Əsla yox!", - deyə müəllif II cildin ön sözündə yazır.

Əsər Azərbaycanda 70 illik sovet təhsilinin obyektiv salnaməsini əks etdirməklə, ayrı-ayrı mərhələlərdə həyata keçirilən islahatlara obyektiv işıq salır. Kitabın II cildi "Azərbaycanda ümumi orta təhsilin inkişafı", "Azərbaycanda internat tipli təhsil müəssisələrinin, xüsusi məktəblərin təşəkkülü və inkişafı", "Azərbaycanda texniki peşə təhsilinin inkişafı", "Azərbaycanda orta ixtisas təhsilinin inkişafı", "Azərbaycanda ali təhsilin inkişafı" və "Azərbaycanda pedaqoji mətbuatın, elmi-pedaqoji kitabxananın, xalq maarifi muzeyinin təşəkkülü və inkişafı" adlı 6 fəsildən ibarətdir. Müvafiq fəsillərdə təhsilin ayrı-ayrı pillələrinin inkişaf tarixi, bu tarixi yaradan insanlar, həmin dövrün təhsillə bağlı mühüm dövlət sənədləri, pedaqoji mətbuat, elmi-pedaqoji kitabxana və Xalq Maarifi Muzeyi barədə dolğun məlumatlar əksini tapmışdır.

Professor Misir Mərdanov gərgin araşdırmalarının obyektiv yekunu olaraq Azərbaycanda sovet hakimiyyətinin qurulması ilə təhsil sistemində yeni bir mərhələnin başlandığını, məhz bu dövrdə kütləvi savadsızlığın aradan qaldırıldığını, orta, texniki, orta ixtisas, ali təhsil məktəblərinin geniş şəbəkəsinin, kəndli gənclər məktəbinin formalaşdığını, klassik müsəlman təhsil müəssisələrinin - mədrəsələrin ləğv

olunduğunu diqqətə çatdırır. Kitabda əlifba islahatlarının əhəmiyyətinə toxunulmaqla yanaşı, Stalin ideyalarının ötən əsrin 30-cu illərində təhsildə demokratik ənənələrin inkişafına ciddi zərbə vurduğu, saxta beynəlmiləlçiliyin aparıcı amilə çevrildiyi, təhsilin məzmununun tamamilə ideoloji prinsiplərə tabe etdirildiyi, kütləvi repressiyalar nəticəsində 80 minədək Azərbaycan ziyalısının məhv olunduğu təəssüflə qeyd olunur. Əsərdə 50-ci illərin sonu və 60-cı illər haqlı olaraq keçmiş SSRİ-nin həyatında "mülayimləşmə mərhələsi" kimi dəyərləndirilir, şəxsiyyətə pərəstişin tənqidinə, sosialist cəmiyyətinin potensial imkanlarına inamın stimullaşdırılmasına, pedaqoji işə yaradıcı proses kimi yanaşılmasına, məktəbin inkişafına, tədris prosesinin məzmun və formasının dəyişdirilməsinə xidmət edən sərəncamların, qərarların əhəmiyyətindən bəhs olunur.

Əsərdə ötən əsrin 60-cı illərinin sonunda ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbər gəlməsindən sonra milli təhsil sisteminin inkişafının keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğu xüsusi vurğulanır. Kitabın ilk fəslində həmin dövrdə ulu öndərin təhsilin, elmin inkişafı sahəsində həyata keçirdiyi islahatlar, habelə bu sahənin inkişaf istiqamətləri dolğun şəkildə, konkret faktlar əsasında təhlil olunmuşdur. Müəllif yazır ki, Heydər Əliyevin rəhbərliyi dövründə respublikada geniş məktəb quruculuğu işləri aparılmış, 1970-1980-ci illərdə 683,1 min şagird yerlik 1191 ümumtəhsil məktəb binası tikilib istifadəyə verilmişdir. Eyni zamanda ulu öndərin rəhbərliyi altında uşaq, yeniyetmə və gənclərin maraq və bacarıqlarının, intellektual səviyyələrinin, yaradıcılıq qabiliyyətlərinin inkişafı, yeni orta ixtisas və ali məktəblərin açılması istiqamətində həyata keçirilən tədbirlərdən geniş bəhs olunmuşdur.

Kitabın V fəslində 1969-1982-ci illərdə ulu öndər Heydər Əliyevin ali təhsilin sağlamlaşdırılması, keyfiyyətinin yüksəldilməsi, azərbaycanlı kadrların keçmiş ittifaqın nüfuzlu ali məktəblərinə təhsil almağa göndərilməsi məsələlərinə geniş toxunulmuşdur. Bu fəsildə yer almış belə bir fakt da maraq doğurur ki, ötən əsrin 70-80-ci illərində SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox nüfuzlu ali məktəblərində respublikamız üçün zəruri ehtiyac duyulan 250-dən çox ixtisas üzrə minlərlə azərbaycanlı gənc təhsil almış, yüksəkixtisaslı kadr kimi formalaşmışdır. Bu fəsildə, həmçinin 1970-1975-ci illərdə Azərbaycanda 4 yeni ali məktəbin fəaliyyətə başladığı qeyd olunur, sovet dövründə respublikada pedaqoji kadrların ixtisaslarının artırılması və yenidən hazırlanmasını həyata keçirən təhsil müəssisələrinin inkişaf mərhələləri, pedaqogika, psixologiya və ayrı-ayrı fənlərin tədrisi metodikası sahəsində aparılan tədqiqatlar əksini tapır.

"Azərbaycan təhsil tarixi" kitabının III cildində müstəqillik illərində milli təhsil sisteminin inkişafından bəhs olunur. 7 fəsildən ibarət bu cilddə Azərbaycan təhsilinin inkişafı tarixi şərti olaraq 3 mərhələyə bölünmüşdür. Müəllifin qənaətincə, 1991-1993-cü illəri əhatə edən birinci mərhələdə sovet təhsil sistemi ciddi tənəzzülə uğramış, yeni sistemin formalaşması bir sıra ciddi problemlərlə, çətinliklərlə müşayiət olunmuşdur. Bu dövrdə təhsil müəssisələrinin maddi-texniki bazası dağıdılmış, şagirdlərə dərsliklərin pulsuz verilməsi dayandırılmış, uşaqların icbari təhsilə cəlb olunması səviyyəsi aşağı düşmüşdü. Eyni zamanda müəllif ən qabiliyyətli, bilikli, savadlı təhsil işçilərinin, xüsusilə ali təhsil məktəblərinin professorlarının dolanışıq dalınca Türkiyəyə, İrana, Rusiyaya, Avropa ölkələrinə üz tutmasını, xarici ölkələrlə təhsil sahəsində

əlaqələrin kəsilməsini həmin dövrün ciddi problemləri kimi xatırladır. Bununla belə, kitabda müstəqillik illərində təhsil sisteminin milli ənənələr və ümumbəşəri dəyərlər əsasında yenidən qurulması üçün tarixi şərait və imkanın yarandığı qeyd olunur.

Müəllif hesab edir ki, müstəqillik illərində Azərbaycan təhsilinin inkişafında II mühüm mərhələ 1993-2003-cü illəri əhatə edir. Qeyd olunur ki, bu mərhələdə sabitləşmə meyillərinin təhsilin inkişafına nüfuz etməsi, milli təhsil quruculuğu sahəsində ilk addımların atılması, dövlətin təhsilə diqqətinin artması, mütərəqqi və inkişafyönümlü qərarların qəbulu, təhsil keyfiyyətinə nəzarətin güclənməsi, beynəlxalq əlaqələrin intensivləşməsi, təhsilə investisiya qoyuluşuna başlanması dövrü kimi yadda qalmışdır. Kitabda ulu öndər Heydər Əliyevin milli təhsilin inkişafı naminə həyata keçirdiyi islahatlar geniş təhlilə cəlb olunmuş, 1998-ci il martın 30-da imzalanmış "Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyası haqqında" sərəncamın əhəmiyyətindən bəhs olunmuşdur. Eyni zamanda 1999-cu ildə "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı"nın qəbulundan sonra təhsil sistemində mütərəqqi islahatların aparıldığı, bu sahənin maddi-texniki bazasının müasirləşdirilməsi istiqamətində mühüm addımların atıldığı xüsusi vurğulanmışdır. İslahat proqramının əsas məqsədi - məktəbəqədər, orta, ali və ali təhsildən sonrakı peşə və ona uyğun əlavə təhsil pillələrində toplanmış potensialı saxlamaq, inkişaf etdirmək, təhsil sistemini tənzimləyən müvafiq normativ-hüquqi baza yaratmaq, Konstitusiyada, "Təhsil haqqında" Qanunda təsbit olunmuş, cəmiyyətin tələblərinə, onun siyasi, iqtisadi və sosial həyatının demokratikləşməsinə əsaslanan dövlət siyasətini həyata keçirməkdən ibarət olmuşdur.

Müəllifin təhlillərindən belə bir qənaətə gəlmək mümkündür ki, məhz bu fundamental əhəmiyyətli proqram təhsil sahəsinin sosial-iqtisadi sabitliyinin təmini üzrə tədbirlərin həyata keçirilməsinə, genişmiqyaslı islahatların aparılması məqsədilə təşkilati, normativ-hüquqi, kadr, maliyyə, maddi-texniki, elmi və tədris-metodiki təminatın yaradılmasına imkan vermişdir. 1993-2003-cü illərdə təhsildə elm və elmi pedaqoji kadr hazırlığı, diplomdansonrakı təhsil, təhsil sahəsində beynəlxalq əlaqələr, ümumilikdə, təhsil islahatlarının ümumi istiqamətləri və məqsədləri ilə bağlı yer almış fikirlər kitabın əhəmiyyətini daha da artırır.

Kitabda 2003-cü ildən sonrakı dövr müstəqillik illərində Azərbaycan təhsilinin inkişafında III mərhələ kimi təsnif olunur və köklü islahatlar dönəmi kimi dəyərləndirilir. Ayrı-ayrı fəsillərdə Prezident İlham Əliyevin 2003-cü ildən ölkədə təhsil sahəsində həyata keçirdiyi islahatlar geniş təhlil edilir, ölkədə təhsilin təşəkkülü, məktəbəqədər, ümumi, ilk peşə-ixtisas və orta ixtisas təhsili pillələri üzrə inkişaf amilləri əksini tapır. Müəllif yazır ki, məhz bu dövrdə təhsil tarixində ilk dəfə olaraq 16 inkişafyönümlü dövlət proqramı təsdiq olunmuşdur və uğurla həyata keçirilməkdədir. Həmin proqramların reallaşdırılması nəticəsində təhsil infrastrukturunun müasir tələblərə uyğun qurulması, təhsilin məzmununun yeniləşdirilməsi, yeni dərslik siyasətinin həyata keçirilməsi, təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsi üzrə yeni model və mexanizmlərin tətbiqi, əmək bazarının tələbatına uyğun kadr hazırlığı və təminatının yaxşılaşdırılması, təhsil müəssisələrinin informasiya-kommunikasiya texnologiyaları ilə təmin edilməsi, təhsil sisteminin informasiyalaşdırılması, məktəbəqədər, ilk peşə-ixtisas, orta ixtisas, ali təhsil, xaricdə təhsil, istedadlı uşaqların inkişafı və digər sahələrdə

əhəmiyyətli nəticələr əldə olunmuşdur. "Ölkəmizin iqtisadi qüdrətinin artması təhsilə yönəldilən investisiyaların həcmini əhəmiyyətli şəkildə artırmış, dövlət büdcəsindən təhsilə ayrılan xərclər 2003-cü ildəki 243 milyon manatdan 2011-ci ildə 1,5 milyard manata yüksəlmişdir. İnvestisiya xərcləri də 2004-cü ildəki 5 milyon manatdan 2011-ci ildə 273 milyon manata çatmışdır. Düşünürəm ki, bu mərhələni Azərbaycan təhsilinin intibah dövrü adlandırsaq, heç də yanılmarıq", - deyə müəllif vurğulayır.

III cildin ayrı-ayrı fəsillərində həmçinin prioritetlər sırasında insan inkişafında təhsilin rolu, təhsilalanlar üçün bərabər imkanların yaradılması, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi, idarəetmənin təkmilləşdirilməsi, bütün təhsil pillələri üzrə yeni kurikulum və kadr hazırlıqları, ixtisasartırma sistemində yeni modellərin tətbiqi, Avropa təhsil məkanına inteqrasiya istiqamətində ali təhsil sistemindəki islahatlar, şagird nailiyyətlərinin qiymətləndirilməsi məsələlərinə geniş toxunulmuşdur. Bütün bunlarla yanaşı, təhsil sahəsində beynəlxalq əməkdaşlığın inkişafı və təhsilin keyfiyyətinin yüksəldilməsini təmin edən digər əhəmiyyətli məqamlar şərh edilmiş, gələcək fəaliyyət istiqamətləri aydın şəkildə göstərilmişdir.

Professor Misir Mərdanov gərgin əmək hesabına ərsəyə gətirdiyi bu tədqiqat əsərində tarixiliklə müasirliyin, habelə şəxsi təcrübə ilə çağdaş maarifçi prosesin üzvi sintezinin təqdimatı formasında Azərbaycan təhsilinin mövcud vəziyyəti və gələcək inkişaf perspektivləri barədə dolğun təəssürat yarada bilmişdir. Oxuculara çatdırılan çoxsaylı fakt və fotoşəkillər milli təhsilin bütün istiqamətləri üzrə respublikadakı mövcud inkişafı əyani surətdə canlandırmağa imkan yaradır. Milli təhsilimizin tarixi və müasir inkişaf yolunu dolğun şəkildə əks etdirən "Azərbaycan təhsil tarixi"

çoxcildliyi təkcə təhsil ictimaiyyətinin nümayəndələri üçün deyil, elm və təhsil sahəsində tədqiqat aparan mütəxəssislər, alimlər, məktəb, pedaqoji fikir və maarifçilik hərəkatı ilə əlaqədar problemləri öyrənənlər, ümumilikdə, geniş oxucu auditoriyası üçün zəngin ensiklopedik mənbədir.

**III Məruzəçi:-** “**Azərbaycan mədəniyyəti XIX əsr – XX əsrin əvvəllərində” adlı çıxışına keçid alır.**

Şimali Azərbaycanın Rusiya tərəfindən işğal edilməsi, xalqın iki dövlət arasında bölünməsi, digər sahələrə olduğu kimi, mədəniyyətə də öz təsirini göstərdi. Rusiya müstəmləkə siyasətinə uyğun olaraq Azərbaycanda elm və təhsilin səviyyəsinin yüksəlməsini istəmir, müxtəlif bəhanələrlə mədəni inkişafı ləngitməyə çalışırdı. Buna baxmayaraq, XIX əsrin ikinci yarısında mədəniyyətin bütün sahələrində irəliləyiş və yeniliklər baş verdi. Maarifpərvər, vətənpərvər ziyalıların fəaliyyəti nəticəsində Azərbaycanda təhsil, elm və incəsənət sahələrində mühüm nailiyyətlər əldə edildi. Belə ki, təhsil, ibtidai məktəb, qəza məktəbləri, mətbuat və s. tərəqqi əldə etdi.

Şimali Azərbaycan Rusiya tərəfindən işğal edildikdən sonra çar hökuməti ölkədə öz iqtisadi və siyasi maraqlarına cavab verən təhsil sistemi yaratmağa başladı. Bu hökumətin məktəb siyasətinin əsasında irticaçı “pravoslavlıq, mütləqiyyət və xalqçılıq” prinsipi dayanırdı. Ruslaşdırma siyasətinin tərkib hissəsi olan təhsil sahəsində çar hökumətinin əsas məqsədi imperiyaya sədaqətli, rus əqidəli məmurlar hazırlamaq idi. Cənubi Qafqaz məktəbləri haqqında 1829-cu ildə verilən Əsasnamə ilə ibtidai dövlət məktəblərinin yaradılmasına başlandı. Əsasnaməyə uyğun olaraq, 1830-cu ildə Şuşada ilk qəza məktəbi yaradıldı. Beləliklə, imperiya məqsədlərinə xidmət etsə də,

Azərbaycanda Avropa tipli dünyəvi məktəbin yaranması mütərəqqi hadisə idi.
Qəza məktəbləri gələcəkdə Cənubi Qafqazın idarə olunması üçün kadrlar hazırlanmasını nəzərdə tuturdu. Bu məktəblərdə təhsil rus dilində aparılsa da, Azərbaycan dili də tədris edilirdi. Çünki Rusiya Qafqazda əsas ünsiyyət vasitəsinin Azərbaycan dili olduğunu bilirdi. Hətta Azərbaycan dilində dərsliklər də hazırlanmışdı. İlk vaxtlar qəza məktəblərində azərbaycanlı uşaqların sayı az idi.
XIX əsrin 30–40-cı illərində qəza məktəblərində azərbaycanlı uşaqların az olmasını nə ilə izah edərdiniz? XIX əsrin birinci yarısında baş verən hadisələri yadınıza salın.
Rusiya hökuməti din xadimlərinin xalq arasında xüsusi hörmətə və nüfuza malik olduğunu da bilirdi. Buna görə də 1849-cu ildə Gəncə, Şuşa, Şamaxı və Bakıda rus hökumətinə sadiq olacaq ruhani şəxslərin hazırlanması üçün müsəlman məktəbləri yaratmağa başladı.

Şimali Azərbaycanda ibtidai təhsil verən digər təhsil müəssisələri məscidlərin nəzdində yerləşən məktəblər – mollaxana və mədrəsələr idi. Belə məktəblərdə zümrə fərqi qoyulmadığından müxtəlif təbəqələrdən olan oğlan uşaqları bir yerdə oxuyurdular. Mollaxana təhsili alanların içərisindən M.F.Axundzadə, S.Ə.Şirvani, M.Ə.Sabir kimi şəxsiyyətlər çıxmışdır.

**IV Məruzəçi:- "Məktəb təlim tərbiyə oçağıdır" adlı çıxışına keçid alır.**

"Məktəb təlim tərbiyə oçağıdır. Məktəbdə əsas məqsəd cəmiyyət üçün savadlı, vətənsevər, yüksək mənliyə və ləyaqətə malik əxlaqi və mənəvi dəyərlərə sahib olan şəxsiyyət yetişdirməkdir..."

Son illər təhsil sahəsində aparılan islahatlar müsbət nəticələrini büruzə verməkdədir. Bu gün təhsilin ən müxtəlif pillələrində yeniləşmə, canlanma hiss olunur.

Xüsusilə də orta məktəblərdə aparılan dəyişikliklər təhsilin inkişafına, onun keyfiyyətinin yüksəlməsinə səbəb olmaqla yanaşı, müəllimlərimizin öz işlərinə daha yaradıcı şəkildə yanaşmasına, yüksək peşəkarlıq nümayiş etdirməsinə imkan yaradıb.

Valideynin uşaqla bağlı qayğıları, məsuliyyəti uşaq dünyaya gələndən sonra başlayır. Digər tələbatları ilə yanaşı, hələ lap kiçik yaşlarından onların öyrənmək, təhsil almaq məsələləri də gündəmdə olur. Övladlarının məktəb həyatına başlaması isə valideynin qayğısını daha da artırır. Valideynlər bütün bu çətinliklərin öhtəsindən gəlmək üçün uşaqlarının keçdikləri bütün proseslərə görə məsuliyyət hissi daşımalı və ən əsası onlara qarşı həssas olmalı, nəzarət funksiyasını yaddan çıxarmamalıdırlar. Psixoloqların fikrincə, valideyn uşaq öyrənərkən, həyatı kəşf edərkən, təhsil illərində daim öz öhdəliyini hiss etməli, bir növ övladına bilgili həyat dostu olmalıdır. Bəzən övladını məktəbə yola salan valideyn onunla bağlı bütün məsuliyyəti məktəbin daşımalı olduğunu düşünür. Xüsusilə son illərin təcrübəsi göstərir ki, müəllimlərlə valideynlərin müştərək işi, nəzarəti öz müsbət nəticəsini göstərir. Məsələn, orta məktəblərdə fəaliyyət göstərən valideyn-müəllim assosiasiyalarını göstərmək olar. Bu yolla valideynlər məktəbin və dolayısı ilə övladının problemlərindən xəbərdar olur, onların birgə həllinə çalışır. Qarşılıqlı fikir mübadiləsi, müzakirələr aparılır. Valideyn övladının məktəbdə qarşılaşdığı problemlərdən xəbərdar olur.

İnsanı yetişdirən, formalaşdıran ilk ocaq ailədən sonra məktəb və pedaqoji mühitdir. Müstəqil zövq, fərdi əqidə, əsl vətəndaşlıq səmimiyyəti, mühitlə qaynayıb-qarışmaq, daim axtarışda olmaq meyli, marağı, bir sözlə bütöv şəxsiyyət probleminin həlli məhz məktəbdən, tədris sistemindən asılıdır.

Müəllim təkcə biliyini yox, ömrünü də şagirdləri arasında paylayır. Həm də müasir anlamda yalnız öyrətmir, eyni zamanda, yetişdirir, tərbiyə edir, formalaşdırır və hər bir gənci xalqa, cəmiyyətə təqdim edir. O, şagirdlərin zehni fəallığını təmini, müstəqil işləmələrin qayğısına qalır, yetirmələrini düşündürücü suallar üzərində çalışdırır, keçilən mövzunu müasir həyatla əlaqələndirir, hər bir dərsin həm də tərbiyəvi xarakter daşımasına, uşaqların mənəvi aləminin zənginləşməsinə ciddi diqqət yetirir.

Təhsil islahatı dövlətin təhsil siyasətinin bir istiqamətidir. Cəmiyyətin mariflənməsi məsələsi də məktəbin və müəllimin fəalliyyətinin tərkib hissəsi və icra edəcəyi vacib işlərdən biri olmalıdır.

Respublikamızda fənn kurikulumlarının tətbiqi valideynlər üçün maraqlıdır. Məktəb və müəllimlə əməkdaşlıq onlara arzularını gerçəkləşdirməkdə yardım etmiş olur.

Təhsilin tələblərindən ən mühümü cəmiyyət üçün vətəndaş yetişdirməkdir. Bu baxımdan cəmiyyətin tələblərinə cavab verə biləcək vətəndaşın təkcə təhsili deyil, həm də düzgün tərbiyəsi müəllimin ən mühüm vəzifələrindən, məsuliyyətli işinin bir hissəsidir.

Müasir müəllim valideyn ilə məktəb arasında vahid tərbiyəvi mühit yaratmağı bacarmalıdır. Dünya təcrübəsi göstərir ki, müəllim təlimi uğurlu təşkil etmək üçün hər

görüşdə valideynlərin rəyini öyrənməlidir. Bu məlumat bazası isə təlimin keyfiyyətinin yüksəlməsinə xidmət edər.
Aparılan müşahidələrdən belə nəticəyə gəlmək olar ki, bu gün təhsilin məzmununda, onun təşkili məsələlərində və nəhayət, qiymətlənləndirmə sistemində baş verən dəyişikliklərlə bağlı valideyni maarifləndirməyi, onunla düzgün münasibət qurmağı bacaran müasir müəllim, əslində öz işinin uğrunu təmin etmiş olur. Bununla o, valideyni məharətlə tənqidçidən müttəfiqə çevirir, onun təcrübəsindən, dünyagörüşündən və bacarığından təlimdə müvəffəqiyyət əldə etmək üçün bəhrələnir.

Orta məktəblərin hamısında valideyn-müəllim münasibətləri eyni deyil və burada hər şey düzgün idarəçilikdən asılıdır. Məktəbdə problemin yaşanmaması onu idarə edən şəxsin peşəkarlığından, yanaşmasından asılıdır. Eyni zamanda müəyyən problemlər yaşayan şagirdlərin valideynləri müəllim və məktəb psixoloqlarına müraciət etməli və yalnız birgə əməkdaşlıq ortaya çıxan problemləri aradan qaldıra bilər.

Ailədə uşaqların sosial inkişaf şəraiti müxtəlif amillərlə şərtlənir, onlardan ikisini xüsusilə qeyd etmək vacibdir. Birinci tip amillərə - ata ilə ana, valideynlərlə uşaqlar, bacı ilə qardaş arasındakı münasibətlər daxildir. Ailənin maddi vəziyyəti, mənzil şəraiti, quruluşu ikinci tip amillər sırasına daxildir. İkinci tip amillər uşaqların tərbiyəsinə bu və ya digər dərəcədə təsir göstərir. Lakin psixoloji tədqiqatlardan görünür ki, onları gənc nəslin tərbiyəsində həlledici hesab etmək olmaz. Ailə münasibətlərinin uşaqların tərbiyəsində roluna xüsusi diqqət yetirilməlidir. Ailədə böyüməkdə olan nəslin tərbiyəsi prosesində valideynlərin istifadə etdikləri ən mükəmməl tərbiyyə üsulları ailə münasibətlərinin tərbiyəvi səmərəliliyini əvəz etmir və edə də bilməz. Ailə

münasibətləri hər şeydən əvvəl uşaqların emosiya və hisslərinə təsir göstərir. Yaş artdıqca uşaqlar həmin münasibətləri mənimsəyir, nəticədə bu zəmində də oğlan və qızların xarakter əlamətləri formalaşır. Valideynlər uşaqlardan söhbət düşəndə bir səslə deyirlər: "Əzizim əzizdir, tərbiyəsi ondan da əzizdir”. Atalar sözünün hikməti aydındır. Uşaqların tərbiyəsinə xüsusi diqqət yetirilməlidir.

Müşahidələr göstərir ki, uşaqlar daha çox sərbəst olduqları- məktəbdən və ailədən kənar gəzib dolandıqları vaxt pozulurlar. Yaşadığı məhəllənin, küçənin, yerləşdiyi ərazinin yaxınlığı, dostluq, yoldaşliq etdiyi uşaqların əxlaqı həddi-büluğa çatmamışlara güclü təsir edir. Digər uşaqlar onun ətrafında toplaşır, onlarla məsləhətləşirlər. Həmin yeniyetmənin şəxsiyyətini müəyyənləşdirmək sonra əməli tədbir görmək valideyn üçün zəruridir.

Tərbiyənin məqsədi müxtəlif formalarda - ideya-siyasi, əmək, əqli, mənəvi, estetik, ekoloji, hüquq və fiziki tərbiyə kimi həyata keçirilir. Bu sahədə ailənin öz imkanları, uşaq bağçalarının və məktəbin özünəməxsus xüsusiyyətləri vardır. Lakin buna baxmayaraq onlar vəhdət təşkil etməlidir. Valideynlər uşağı ilk gündən elə tərbiyə etməlidir ki, onun hansı yaşındasa yenidən tərbiyəsinə ehtiyac qalmasın. O,cəmiyyət üçün faydalı adam kimi böyüsün, ailə, kollektiv, ümumiyyətlə xalq üçün ağır yükə çevrilməsin. Böyüməkdə olan nəslin tələbat-motivasiya sahəsinin, əxlaqi şüurun formalaşmasına xüsusi diqqət yetirilməlidir. Uşaqda özü haqqında aydın təsəvvür yaradılmalıdır. Belə ki, o, özünün müsbət və mənfi keyfiyyətlərini düzgün qiymətləndirməyi öyrənməli və vaxtında özünütərbiyə ilə məşğul olmalıdır.

Təlimdə keyfiyyətin əldə olunması üçün psixoloji xüsusiyyətləri dərindən bilmək vacibdir. Müəllim bütün hallarda, xüsusən "müəllim – şagird” münasibətlərinin

qurulmasında nəzakətli olmalı, onun davranışına verilən etik tələbləri gözləməli, şagirdlərin şərəf və ləyaqətinə hörmət bəsləməli, onlara münasibətdə ədəblə davranmalıdır.

Müəllim və şagird arasında qarşılıqlı hörmət, sevgi olmalıdır ki, müəllim şagirdə nəzakətlə və eyni zamanda ciddi yanaşmağı bacarsın. Müəllim şagirdi bir şəxsiyyət kimi görməli, onun mənliyinə, şəxsiyyətinə toxunan söz deməməlidir. Şagird nə qədər aktiv olsa da, yoldaşları ilə düzgün münasibət qurmasa da müəllim özünün pedaqoji metodlarından istifadə edib, xoş, isti münasibət yaratmalı, onu düzgün şəkildə maarifləndirməlidir.

Düzgün qurulmuş müəllim – şagird münasibətləri şagirdlərin təlimə marağının artmasında mühüm vasitədir. Qarşılıqlı ünsiyyət şagirdlərin fəallığını artırır, kollektiv şəkildə işləməyə istiqamət verir. Müəllimdə bu tip keyfiyyətlərin olmaması təhsil sistemində şagird-müəllim problemlərinin yaranmasına gətirib çıxarır.

Müəllim və şagird arasında problemləri aradan qaldırmaq üçün aşağıdakı fikirləri qeyd etmək olar:

1.Müəllim yaxşı psixoloq olmağı bacarmalıdır. Təhsil mərkəzlərində psixoloji treninqlər keçirilməli, müəllimlər üçün tez-tez məşğələlər təşkil olunmalıdır.

2.Müəllimlər təkcə elmi cəhətdən deyil, etika, estetika baxımından da yüksək mədəniyyətə malik olmalıdır.

3.Müəllim hər bir şəxsə fərdi yanaşmağı bacarmalıdır. Çünki hər bir uşağın fərdi xarakterik xüsusiyyəti var və hər müəllim də ona uyğun davranmalıdır.

4.Müəllim valideynlə sıx əlaqədə olmalıdır ki, sinifdə baş verənlərdən hər zaman valideyn xəbərdar olsun. Çünki həm valideyn həm də müəllim uşağa eyni şəkildə təsir etməyi bacarmalıdır ki, uşaqda ikifikirlilik yaranmasın.

5.Uşaqlar da müəllimlərinə qarşı hörmətlə, etiqadla yanaşmalıdır. Qarşılıqlı şəkildə anlaşma yaratmağa çalşmalıdırlar. Çünki müəllimlər valideynlərimizdən sonra bizim əsas yol göstərənimizdir.
6.Müəllim-şagird arasında konflikt yarandıqda özümüzü müəllimin yerinə qoymalı, vəzifəsinin çətinliklərini dərk etməli və onun tək, şagirdlərin isə çox olduğunu unutmamalıyıq.
7. Şagirdlər müəllimi təkcə pedaqoq kimi görməməlidir. Müəllimi özlərinə dost bilməli, problemlərini, yoldaşları arasında olan konfiliktlərini onunla həll etməyə çalışmalıdırlar.
8. Məktəb həyatında müəllim-şagird arasında da konfikiktlər baş verir. Bu zaman şagirdlər etik qaydaları keçməmək şərti ilə öz fikirlərini müəllimlərinə deməli, əgər problem həll olunmazsa, məktəbin psixoloqu ilə məsləhətləşib, məsələni yoluna qoya bilərlər.
Məktəb təlim tərbiyə oçağıdır. Məktəbdə əsas məqsəd cəmiyyət üçün savadlı, vətənsevər, yüksək mənliyə və ləyaqətə malik əxlaqi və mənəvi dəyərlərə sahib olan şəxsiyyət yetişdirməkdir. Bu cür şəxsiyyətlər o zaman tam formalaşır ki, müəllim-valideyn, məktəb-valideyn münasibətlərinin vəhdəti ön planda olsun.
"Bilik Günü" ilə əlaqədar kitabxanada müxtəlif yaş qruplarının iştirakı ilə, eləcə də aşağı sinif şagirdlərinin iştirakı ilə keçirilən tədbirlərdən biri də *"Oğul mənimdir əgər, oxutmuram, əl çəkin!"* başlıqlı **səhnəcikdir.**



Tədbir zamanı kitabxananın oxu zalına toplaşan məktəblilər məktəbə, müəllim və elmə aid şeirlər, atalar sözləri və deyimlər söyləyir. Daha sonra xüsusi geyimlərdə olan iştirakçılar səhnəyə keçid alır . Uşaqların, bütövlükdə xalqın sevimlisinə çevrilən böyük, əbədiyaşar şair Mirzə Ələkbər Sabirin "Oğul mənimdir əgər, oxutmuram, əl çəkin!" adlı əsəri səhnələşdirilir.

Oğul mənimdir əgər, oxutmuram, əl çəkin!
Eyləməyin dəngəsər, oxutmuram, əl çəkin!

Gərçi bu bədbəxt özü elmə həvəskardır,
Kəsbi-kamal etməyə səyi dəxi vardır,
Məncə bu işlər bütün şiveyi-küffardır,
Dinə zərərdir, zərər, oxutmuram, əl çəkin!
Eyləməyin dəngəsər, oxutmuram, əl çəkin!

Bəs ki, uşaqdır hələ, yaxşı-yaman sanmayır,
Elmin əbəs olduğun anlamayır, qanmayır,
Sair uşaq kimi hər sözə aldanmayır,

Eyləyir ömrün hədər, oxutmuram əl çəkin!
Eyləməyin dəngəsər, oxutmuram, əl çəkin!

Eyləmərəm rəhm onun gözdən axan yaşına,
Baxsın özündən böyük öz qoçu qardaşına,
Ölsə də verməm rıza şapqa qoya başına,
Kafir ola bir nəfər, oxutmuram əl çəkin!
Eyləməyin dəngəsər, oxutmuram, əl çəkin!

Uşaq mənimdir, baba, dəxli nədir sizlərə?
Kim sizi qəyyum edib hökm edəsiz bizlərə?
Yatmaram əsla belə dinə dəyər sözlərə!
Bir kərə qan, müxtəsər, oxutmuram, əl çəkin!
Eyləməyin dəngəsər, oxutmuram, əl çəkin!

Qoysanız öz oğlumu mən salım öz halimə,
Sənətimi öyrədib, uydurum əhvalimə,
Dün bu oxutmaq sözün ərz elədim alimə,
Söylədi : ”haza kəfər…”, oxutmuram əl çəkin!
Eyləməyin dəngəsər, oxutmuram, əl çəkin!

Bəsdi, cəhənnəm olun, bunca ki, aldatmısız,
İndi beş ildir tamam dinimə əl qatmısız,
Sevgili övladımı kafirə oxşatmısız,
Duydum işin sərbəsər, oxutmuram əl çəkin!
Eyləməyin dəngəsər, oxutmuram, əl çəkin!

Satmaram öz əqlimi siz kimi laməzhəbə,
Razıyam oğlum gedə qəbrə, - nə ki məktəbə!
Məktəb adın çəkməyin, - mələbədir, mələbə!..
Əlhəzər, ondan həzər, oxutmuram əl çəkin!
Eyləməyin dəngəsər, oxutmuram, əl çəkin!

Bəsdir o bildikləri, kaş onu da bilməsə!
Canıma olsun fəda bir də üzü gülməsə!
Ta ki, o zehnindəki fikrləri silməsə,
Sanma ola bəxtəvər, oxutmuram, əl çəkin!
Eyləməyin dəngəsər, oxutmuram, əl çəkin!

Fikrimi verməm əbəs siz kimi nadanlara,
Sövq edəsiz oğlumu bir para hədyanlara,
Çünki xəyanətçisiz cümlə müsəlmanlara,
Mənzilınizdir səqər, oxutmuram, əl çəkin!
Eyləməyin dəngəsər, oxutmuram, əl çəkin!
Dinə zərərdir, zərər, oxutmuram, əl çəkin!



https://www.youtube.com/watch?v=jY6gIYdTaDU

Sentyabrın 15-də Azərbaycanın təhsil ictimaiyyətinin bayramı, Bilik günüdür. Ölkəmizdə yeni dərs ili başlayır 15 sentyabr Bilik günü ilə əlaqədar **“Bilik günü gəlsəniz, kitab olar töhfəmiz”** adlı aksiyanın təşkili də sevimli oxucularımız üçün məqsədəuyğundur.

Həmin tarixdə kitabxanaya gələn bütün məktəbli oxuculara kitablar hədiyyə edilir.

“Bilik Günü” ilə əlaqədar məktəbli və yeniyetmələr arasında intellektual oyunun təşkili də oxucular üçün çox maraqlı tədbirlər sırasındadır.

“Bilik Günü” ilə əlaqədar kitabxanalarda keçiriləcək tədbirlərdən biri **“Məktəbə get, dərs oxu”** adlı *şeir müsabiqəsi* ola bilər. Kitabxanaçı öncə mövzu ilə bağlı şeir və materialları məktəblilərə təqdim edir. Məktəblilər müəyyən etdikləri şeiri əzbərləyərək təyin edilmiş tarixdə kitabxanaya gəlirlər. Qonaqlar və münsiflər öz yerini aldıqdan sonra kitabxanaçı hər kəsi salamlayaraq tədbirə başlayır. O, ilk olaraq 15 Sentyabr Bilik Günü haqqında qısa məlumat verir:

**Kitabxanaçı:** Bir elm öyrənmək istədikdə sən
Çalış ki, hər şeyi kamil biləsən
Kamil bir palançı olsa da insan
Yaxşıdır yarımçıq papaqçılıqdan.

Nizami Gəncəvi

Məktəb — müasir cəmiyyətdə uşaqların təhsil almaq hüquqlarını təmin etməkdə əsas rol oynayır. O həm də uşaqların təlim və tərbiyəsi ilə məşğul olur. Məktəblərdə təhsil və tərbiyə cəmiyyətin iqtisadi və mədəni inkişafından asılıdır. Məktəblərdə mövcud olan problemlər islahatlarla

həll olunur. Məktəbdə nizam-intizam, qayda-qanun və tərbiyə əsas amillərdəndir.

Məktəb ikinci evimizdir. Məhz bu müqəddəs ocaqdan böyük həyata vəsiqə alırıq. Onun üçün də əsl vətəndaş kimi yetişməyimizdə böyük rolu olan müəllimlərimizin əməyini heç zaman unutmuruq.

Belə bir fikir var ki, "Düşmən qarşısında əyilməyən baş şagird qarşısında əyilir". Yəni eyni vərəqə, kitaba şagird və müəllim eyni anda əyilir. Müəllimin şagirdə olan sevgisi və təmannasız elmə yiyələndirmə istəyi müəllimi də elə o şagird yaşda edir. Şagird də eyni işi gördüyü üçün, müəllimin ona verdiyi biliyə görə, ona olan qayğısına və gördüyü işdən aldığı həzzə görə müəllimi sevir. Əslində onlar eyni məqsədə xidmət edirlər. Deməli, müəllimin əməyinə verilən qiymətlər əvəzsiz və yerindədir. Müəllimə olan dəyər hər zaman diqqətəlayiqdir. Ulu öndər Heydər Əliyev də öz çıxışlarında dəfələrlə müəllim əməyini yüksək qiymətləndirmişdir. Dahi maarifçi H. Zərdabi və digər görkəmli şəxsiyyətlər müəllimin cəmiyyətdəki rolunun əvəzsiz olduğunu dönə-dönə vurğulamışlar. Hələ VI əsrdə islam peyğəmbəri həzrəti Məhəmməd demişdir: "Hər kim mənə bir hərf öyrətsə, mən onun qırx il qulu olaram". Bu peyğəmbərimizin elmə verdiyi çox böyük qiymət idi. Yəni hər bir elmlə məşğul olan adam bəşəriyyət, ətraf və özü üçün bir o qədər faydalı ola bilir. Məhz bunun üçün deyirlər ki, alimim bir damla mürəkkəbi şəhidin qanından üstündür. Şəhidlər bəşəriyyətin, bütün insanların əzizi, bütün insanlığın müqəddəsidir. Şəhidlik elə bir yüksək zirvədir ki, hər insan övladı o zirvəyə yüksələ bilməz! Bununla belə alimin bir damla mürəkkəbi şəhidin qanından yüksəkdə dayanır. Çünki alim bütün bəşəriyyətin, şəhid isə dövlətinin xilaskarıdır. Bu mənada hər bir əlifbanı qurtaran, elmə yiyələnən şagird, vətəndaş gələcəyin

qurucusu, zülmətdən nura doğru irəliləyən ziyalıdır, şəxsiyyətdir. Filosof Aristotelin müdrik fikirlərini qeyd etmək istərdim: “Valideynlərim məni göydən yerə endirdi, müəllimlərim isə məni yerdən göyə qaldırdı”. Mən hesab edirəm ki, müəllimə həsr olunan hədsiz şeirlər, iri məzmunlu əsərlər, habelə rəsm əsərləri belə onun əməyini, çəkdiyi cəfanı və onun gələcəyə yandırdığı işığı qədərincə vəsf etməyib, edə də bilməz. Bu yerdə qələm də, fırça da aciz qalar.

Qaranlıqdan işığa çıxmaq üçün dünyada,
Bərk-bərk tutub gedirəm müəllimin əlindən.

Kitabxaqnaçının dəyərli çıxışından sonra iştirakçılar növbə ilə şeirini intonasiya ilə deyirlər.

*I iştirakçı sevilən şair Rafiq Yusifoğlunun “Müəllim” adlı şeirini demək üçün səhnəyə yaxınlaşır.*

Müəllimdən öyrəndik
Oxumağı, yazmağı,
Qəlbimizin səsinə
Hər an qulaq asmağı.

O, yeni həyat verir
Hər kəlməyə, hər sözə.
Yerin, göyün sirrini
Odur öyrədən bizə.

Müəllim göstərir ki,
Nə düzdür, nə əyridir.
O bizə ləyaqətlə
Yaşamağı öyrədir.

Hamımıza sevdirir
Ana yurdu o insan.
Qəlbimizdə həmişə
Yanan nurdu o insan…

*II iştirakçı Abdulla Şaiqin "Məktəbə get, dərs oxu" adlı şeirini demək üçün səhnəyə yaxınlaşır.*

Ağıllı oğlum, oyan!
Qiymətlidir hər zaman.
Tez ol, dur get məktəbə,
Sarıl elmə, ədəbə.
Səhər ziyandır yuxu,
Məktəbə get, dərs oxu.

*III iştirakçı Zahid Xəlil "Kitabların anası Əlifba kitabıdır" adlı şeirini demək üçün səhnəyə yaxınlaşır.*

Hər hərf bir göyərçin,
Hər hərf su sonası.

Nə çox səs var dünyada
Adam səsi, quş səsi.
Təbiətin dili var,
Düşündürür hər kəsi.

Səslərdən söz yaranır,
Sözdən gözəl cümlələr.
Sözə —qızıl deyibdi,
Söz qədrini bilənlər.

Böcəyin də səsi var,
Küləyin də səsi var,
Hər səsin də yazıda
Bir cür işarəsi var.

Səs yazılsa vərəqə
Çönüb hərf olacaq.
Qanad çalıb havada
Dəftərimə dolacaq.

A- da ana deyirəm,
V- da vətən kəlməsi.
Vətən ulu babamdır,
Vətən atamın səsi.

Əlifba xəzinədir,
Onda min inci yatır.
Hər şirin kəlməsində,
Uşaq sevinci yatır.

Gəlin heç tələsməyək,
Öyrənək Əlifba-nı.
Bu dünyada onun tək
Əziz bir kitab hanı?!

*IV iştirakçı Bəxtiyar Vahabzadənin “Kitab” şeirini demək üçün səhnəyə yaxınlaşır.*

Kitab böyük müəllimdir,
Sinəsində min aləm var.
O səni bir insan kimi
Gah güldürər, gah ağladar.

Dili yoxdur, o danışır,
Hər bir şeydən xəbər verir.
Ata kimi sənə bəzən
Kitab doğru yol göstərir.

Bu dünyanın hər sirrini
Bizə deyir bu kitablar.
Ömrümüzün yollarına
Nur çiləyir bu kitablar.

*Tədbirin sonunda gözəl qiraəti ilə seçilən iştirakçılar münsiflər tərəfindən mükafatlandırılır.*

"Bilik Günü" ilə əlaqədar kitabxanada onlayn tədbirlər də keçirilə bilər. Bu tədbirlərdən biri də *inşa yazı müsabiqəsidir*. Belə ki, kitabxananın clb.az saytında müsahibə haqqında ətraflı məlumat verilir. Xəbəri oxuyub məlumat əldə edən iştirakçılar öz inşalarını kitabxananın elektron ünvanına göndərirlər. **"Məktəbim"** mövzusunda yazılan bütün inşalar kitabxana rəhbərliyinin təlimatı ilə əvvəlcədən təyin edilən münsiflər tərəfindən yoxlanılaraq qiymətləndirilir. Yazısının məzmunu və rəngarəngliyi ilə fərqlənən iştirakçılar kitabxanaya dəvət edilərək mükafatlandırılır.
*"Bilik Günü" ilə əlaqədar məktəb və kitabxanalardan əlavə bağçalarda da müxtəlif başlıqlı tədbirlər keçirilə bilər. Bağçanın "məktəbəqədər" yaş qrupu arasında* ***"Mən məktəbə gedirəm"*** *adlı tədbir keçirilə bilər. Tədbirin məqsədi məktəb yaşlı uşaqların məktəbə olan münasibətinə daha yaxşı və faydalı təsir göstərməkdir. Bunun üçün kitabxanaçı bağçaya gedərək çox sevilən əlamətdar gün olan "Bilik Günü" ilə əlaqədar oxucularla maraqlı söhbət aparır.*

***Kitabxanaçı:*** Məktəb şagirdin ikinci evidir, çünki uşaqlar vaxtlarının yarısını orada keçirirlər. Məktəb hər bir uşağın təhsil aldığı ilk və ən yaxşı öyrənmə yeri və ilk qığılcımdır. Yaxşı, təhsil şagirdin məktəbdən aldığı ən gözəl hədiyyədir. Təhsil bizim həyatımızda mühüm rol oynayır.

Məktəbə yazılmaq isə bilik və təhsil almaq üçün ilk addımdır. Bu, tələbəyə daha yaxşı bir şəxsiyyət yaratmaq və daha yaxşı bir həyat əldə etmək üçün platforma verir. Məktəblər təhsil almaq və biliyi artırmaq üçün platforma yaratmaqla yanaşı, bir millətin xarakterinin formalaşması vasitəsidir.

Məktəb hər il çoxlu böyük insanlar yetişdirməklə ölkəyə xidmət edir. Millətin gələcəyinin formalaşdığı yerdir. Yaxşı, məktəb təkcə təhsil və bilik almaq üçün bir vasitə deyil, həm də şagirdin istedadını artırmaq üçün məktəbdənkənar fəaliyyətlərdə iştirak edə biləcəyi bir platformadır.

Şagird məktəbə girəndə çantası dolu kitab və dəftərlə bərabər, gələcək arzuları ilə gəlir. O gözəl yerdən ayrılanda isə təhsil, bilik, mənəvi dəyərlər, çoxlu xatirələr toplayaraq gedirlər. Məktəbdə uşaqlar kitabların içindən əldə etdiklərini öyrətməklə yanaşı, mənəvi, əxlaqi dəyərlərini artırırlar.

Kitabxanaçının məruzəsindən sonra azyaşlı uşaqlar öz yoldaşları üçün satirik, amma eyni zamanda öyrədici, təbliğedici səhnə nümayiş edir. Bunun üçün dialoqa əvvəlcədən hazırlaşmış uşaqlar - nəql edən, məktəbli, polis və piyadaya uyğun geyimlərlə səhnəyə yaxınlaşaraq öz rollarına keçid alır.

**Nəql edən:** - Uşaqlar, Şəkidə nəinki böyüklər, hətta uşaqlar da hazırcavab olur, məzəli əhvalatlar danışırlar. Bu əhvalatı siz də kiçik dostlarınıza danışarsınız.

Şəkili Zaur yolu qırmızı işıqda keçirdi. Bunu görən yol müfəttişi onu saxlayıb soruşdu:

**Polis:** - Sən hansı məktəbdə oxuyursan?
Zaur əvvəl fikirləşdi, sonra ağlına nə gəldisə, gülümsəyərək dedi:
**Şagird:** - Evimizin yanındakı məktəbdə.
**Polis:** -Bəs eviniz haradadır?
**Nəql edən:** - deyə müfəttiş soruşdu. Zaur özünü itirmədən dedi:
**Şagird:** -Məktəbin yanında.
**Nəql edən:** Uşaqlar, sizcə Zaur niyə belə dolaşıq cavab verirdi?..
Çünki o, işiqforun işıqları barədə xəbərsiz, keçid qaydaları haqqında isə məlumatsız idi. Bəs siz necə, dəyərli dostlar, işıqforun işıqları və ümumilikdə keçid qaydalarından xəbərdarsınzmı?
Metodistin çıxışından sonra balaca iştirakçılara kitabxananın oxu zalında məktəbə, bilik gününə aid müxtəlif adda cizgi filmləri təqdim olunur.
*https://www.youtube.com/watch?v=JZDJEcf2p2c*
*https://www.youtube.com/watch?v=dNkFNacARTU*
*https://www.youtube.com/watch?v=AMB86zGO0EQ*
*https://www.youtube.com/watch?v=-9UxWlf45bM*
"Bilik Günü" ilə əlaqədar kitabxanada keçirilə biləcək tədbirlərdən biri də **dəyirmi masadır.** *"İntibaha, tərəqqiyə aparan yollar-məktəb yolları"* başlığı altındadır. Tədbirdə təhsil işçiləri, müəllimlər, ali və orta məktəb tələbələri və s. iştirak edə bilərlər.
Tədbiri açıq elən edən kitabxanaçı günün məna və zərururiyyəti haqqında məlumat verdikdən sonra ali və orta məktəb müəllimləri öz çıxışlarına keçid alır.
**I Müəllim:** Ümumtəhsil məktəbi uşaqların və yeniyetmələrin təlimini və tərbiyəsini mütəşəkkil surətdə həyata keçirən maarif müəssisəsidir.

İlk məktəblər qədim Şərqdə - Babilistan, Assuriya, Misir, Hindistan və s. meydana gəlmişdir.
Azərbaycan ərazisində ilk məktəblər - "saray məktəbləri", "kilsə məktəbləri" V əsrin I yarısında yaranmışdır. VII - IX əsrlərdə Yaxın və Orta Şərqdə, Qafqazda və Orta Asiyada məscidlərin nəzdində elementar və yüksək (mədrəsə) təhsili verən müsəlman məktəbləri geniş yayılmışdı.

VII əsrin ortalarında Azərbaycanın Ərəb Xilafəti tərəfindən işğalı, onun hər iki hissəsinin - Albaniya və Atropatenanın xilafətin tərkibinə qatılması ölkədə islam dininin yayılması ilə nəticələndi. İşğalaqədərki dövrdə də təhsil sistemi xeyli inkişaf etmiş, Azərbaycanda islam mədəniyyətinin daşıyıcıları olan yeni təhsil müəssisələri - məktəb və mədrəsələr şəbəkəsi yaranmağa başladı. Xilafətin nüfuz etdiyi bütün ərazilərdə olduğu kimi, Azərbaycanda da məktəb və mədrəsələrdə tədris ərəb dilində aparılır, dini biliklərlə yanaşı təbabət, dil, fəlsəfə, hüquq, məntiq, riyaziyyat, ritorika və s. dünyəvi elmlər də öyrədilirdi. "Məktəblər əsasən ilkin ibtidai təhsil verirdi".

***II Müəllim***: XI-XII əsrlər bütün islam şərqində olduğu kimi, Azərbaycanda da elmin, təhsilin, maarifin - bütövlükdə mədəniyyətin inkişafında əsl intibah mərhələsi olmuşdur. "XII əsrdə Azərbaycanda məktəb şəbəkəsi xeyli genişlənmişdir". "Məktəblərdə şagirdlərin qəbulunda yaş həddi qeyri-məhdud idi. 7-10 və bəzən də daha çox yaşlı uşaqlar məktəbə qəbul edilirdilər. Məktəbə qəbulun da dəqiq vaxtı yox idi. İlin istənilən vaxtında uşaq məktəbə qəbul edilə bilərdi. Məktəbi bitirmə vaxtı da qeyri-müəyyən idi. Əsasən 7-8 il oxunurdu. Molla uşağın biliyini fərdi qaydada "kafi" hesab etdikdə uşaq məktəbi bitirə bilərdi" (R.Hüseynzadə "Qədim və erkən orta əsrlərdə Azərbaycanda tərbiyə, təhsil və pedaqoji fikir", səh. 108-109, B. 2007.). Məktəbdə

təhsilalma müddəti dəqiq olmadığı üçün onun neçə sinifli olması - strukturu haqqında fikir söyləmək qeyri-mümkündür.

XIII əsrdən başlayaraq məscidlər yanında fəaliyyət göstərən "yetimlər evi", "təlim evi" adlanan xeyriyyə müəssisələri də ibtidai təhsil verən məktəblər şəbəkəsinə daxil idi. Bu dövrdə böyük Azərbaycan alimi N.Tusi tərəfindən Marağa rəsədxanası nəzdində yaradılan "Böyük riyaziyyat məktəbi" adlandırılan mədrəsə fəaliyyət göstərirdi. Səfəvilər dövlətinin yaranması (1501-1736) ölkədə maarif və mədəniyyətin inkişafına güclü təkan verdi, məktəb və mədrəsələrin şəbəkəsi genişləndi. Bu müəssisələrdə tədris ərəb, fars dilləri ilə yanaşı, Azərbaycan (türk) dilində də aparılırdı.

XVIII əsrdə maarif və mədəniyyətin inkişafında tənəzzül baş verdi. 1736-cı ildə Nadir şah Əfşar tərəfindən maarif müəssisələrinin vəqfi xəzinəsinin zəbt olunması və onların əsas maliyyə mənbəyi olan vəqf torpaqlarından məhrum edilməsi məktəb və mədrəsələrin normal fəaliyyətini pozdu, onların böyük əksəriyyətinin bağlanmasına səbəb oldu.

XIX əsrin əvvəllərində Rusiya - İran müharibələri nəticəsində Azərbaycanın iki yerə parçalanması və Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı məktəb təhsilinə də təsir etdi. Çar Rusiyasının Azərbaycanda təhsil sahəsində həyata keçirdiyi tədbirlər mahiyyətcə onun müstəmləkəçilik siyasətinin tərkib hissəsi idi. Lakin bununla belə, təhsil tarixində XIX əsr xüsusi yer tutur. Bu dövrdə təlim rus dilində olsa da, Azərbaycanda müxtəlif tipli dövlət təhsil müəssisələrinin (qəza ibtidai məktəbləri, müsəlman məktəbləri, gimnaziya və realnı məktəblər, rus - Azərbaycan məktəbləri, rus və müsəlman qız məktəbləri, dəmiryolu və sənət məktəbləri, seminariyalar, peşə və orta ixtisas

məktəbləri və s.) yaranması xalqın mədəni səviyyəsinin yüksəlməsinə güclü təkan verdi. XIX əsrin II yarısından fəaliyyətə başlayan yeni tipli gimnaziya və realnı məktəblərini bitirən azərbaycanlı gənclərin böyük bir hissəsi Rusiya və Avropanın ali məktəblərində təhsil almaq imkanı qazandı.

XIX əsrin I yarısında Azərbaycan məktəbinin inkişafında iki başlıca meyil özünü göstərdi: ənənəvi müsəlman təhsil formalarının saxlanması və yeni ibtidai rus məktəblərinin yaranması.

Azərbaycanda "qəza məktəbləri" adlandırılan ilk dövlət məktəbləri 1829-cu və 1835-ci illərdə təsdiq edilmiş "Zaqafqaziya məktəbləri haqqında Əsasnamə"lərə uyğun olaraq Şuşa (1830), Bakı (1832), Nuxa (Şəki, 1833), Gəncə (1837), Şamaxı və Naxçıvanda (1838) açılmışdı. Artıq XIX əsrin 50-ci illərində Azərbaycanda 9 rus məktəbi fəaliyyət göstərirdi. Onlardan 5-i qəza məktəbi idi. Qəza məktəbləri üçsinifli (I-II-III siniflər) idi.

XIX əsrin 60-cı illərində Rusiyada aparılan məktəb islahatı, o cümlədən 1867-ci il "Əsasnamə"sinə görə Azərbaycandakı məktəblərin də imperiya daxilindəki tədris sisteminə uyğunlaşdırılmasına başlanıldı. Azərbaycan dili tədris proqramlarından çıxarıldı, təhsilin məzmunundakı ruslaşdırma siyasəti daha da sərtləşdirildi. Bu dövrdə ümumtəhsil məktəbləri sistemində aparıcı yeri təlim rus dilində olan ibtidai məktəblər tutmağa başladı. XIX əsrin 70-ci illərində Azərbaycanın bütün qəza məktəbləri 6 illik təhsil müddəti olan şəhər məktəblərinə çevrildi. Bununla yanaşı, Azərbaycanda kənd məktəbləri də fəaliyyət göstərirdi.

XIX əsrin II yarısında Azərbaycanda kapitalist münasibətlərinin yaranması, iqtisadiyyatın sürətli inkişafı və sənayedə, kənd təsərrüfatında ixtisaslı fəhlələrə,

mütəxəssislərə olan tələbat mövcud ümumtəhsil və peşə məktəbləri şəbəkəsinin genişləndirilməsinə təkan verdi.

Azərbaycanda maarifçilik hərəkatının bəhrələrindən biri yeni rus-tatar (rus-Azərbaycan) məktəblərinin yaranması oldu. Bu tip ilk kənd məktəbi 1875-ci ildə Qazaxın Salah kəndində T.Mamleyev tərəfindən açılsa da, Azərbaycan məktəbinin sonralar inkişafında elə bir əhəmiyyətli iz qoymadı. Rus-Azərbaycan məktəblərinin yaradılmasının həqiqi tarixi və gələcək inkişafı Tiflis Müəllimlər İnstitutunun məzunları Həbib bəy Mahmudbəyov və Sultanməcid Qənizadənin adları ilə bağlıdır. Onların 1887-ci ildə Bakıda təsis etdikləri "birsinifli üçüncü dərəcəli rus - tatar (Azərbaycan)" məktəbində rus məktəblərindən fərqli olaraq Azərbaycan dilinin tədrisi məcburi fənlər sırasına daxil edilmişdi. Tezliklə Bakıda belə məktəblərin sayı 6-ya çatdı. Naxçıvan və Nuxa (1894), Şuşa və Salyan (1896) və Gəncədə (1899) də rus - Azərbaycan məktəbləri fəaliyyətə başladı. 1899-cu ildə bu məktəblərdə 837 şagird təhsil alırdı. Məktəblərin şagird və pedaqoji kontingenti əsasən azərbaycanlılardan ibarət idi. "Rus - Azərbaycan məktəbinin rəsmən birsinifli (tədris müddəti iki il) olmasına baxmayaraq, sonralar 2 sinifli (tədris müddəti 4 il) oldu və təlimin məzmunu nisbətən genişləndirildi" (H.Əhmədov "XIX əsr Azərbaycan məktəbi". səh. 169, B. 1985). Rus - Azərbaycan məktəbləri Azərbaycanın məktəb təhsili tarixində, maarifçiliyin inkişafında müstəsna xidmət göstərmişdir.

XIX əsrin II yarısında Azərbaycanda ilk orta məktəblər - realnı məktəb, gimnaziya və progimnaziyalar yarandı. İlk progimnaziya 1865-ci ildə Bakıda təsis edildi, 1867-ci ildə realnı gimnaziyaya çevrildi. "Gimnaziya və progimnaziyaların Nizamnaməsi"nə (1871) görə, bütün gimnaziyalar klassik yönümlü oldu, realnı gimnaziyalar isə

realnı məktəblərə çevrildi. Bakıdan sonra realnı məktəblər Gəncə (1867) və Şuşada (1881) açılmışdı. 1896-cı ildə Bakıda klassik kişi gimnaziyası təsis edilmişdi. "Realnı progimnaziyalar dörd əsas, bir hazırlıq siniflərindən, gimnaziyalar isə 7 sinifli idi" (H.Əhmədovun yuxarıda qeyd edilən əsəri, səh. 191-192). Bu məktəblər müvafiq olaraq natamam orta və orta təhsil verirdi. XIX əsrin sonunda Azərbaycanda kişilər üçün 7 natamam orta və orta məktəb fəaliyyət göstərirdi, onlarda 2366 şagird təhsil alırdı.

XX əsrin əvvəllərində Azərbaycanda baş verən sosial-iqtisadi və mədəni yüksəliş maarif sisteminin də inkişafına güclü təkan verdi. Ölkədə çox sayda yeni üsullu, Avropa modelli tədris müəssisələri açıldı. XIX əsrin 90-cı illərindən qadın təhsili verən məktəb açmaq uğrunda mübarizə aparan H.Z.Tağıyevin gərgin əməyi və vəsaiti hesabına 1901-ci il oktyabrın 7-də Bakıda milli təhsil tarixinə "H.Z.Tağıyevin qız məktəbi" kimi daxil olan ilk müsəlman qadın məktəbi açıldı. Qadın məktəbi əvvəllər 4 illik, az sonra 5 illik, bir qədər sonra 6 illik oldu. Məktəbə ilk dəfə 58 nəfər qəbul edilmişdi ki, onlardan 35-i pulsuz təhsil alırdı. 1916-cı ildə ali ibtidai məktəbə, sonra isə seminariyaya çevrilən bu məktəbin fəaliyyəti 1918-ci ilin martında daşnak-bolşevik quldur dəstələri tərəfindən azərbaycanlılara qarşı törədilən Bakı qırğını zamanı dayandırıldı.

"1914-cü ildə Bakı quberniyasındakı 448 ibtidai məktəbdən yalnız 28-i ikisinifli, qalanları isə birsinifli idi. 1912-ci il "Əsasnaməsi"nin tətbiqi ilə əlaqədar olaraq Azərbaycanda ali ibtidai məktəblər adlanan təhsil ocaqları yaradıldı. Yeni məktəblər dördillik idi. 1915-ci ilin əvvəlində Bakı, Gəncə, Quba, Lənkəran, Naxçıvan, Nuxa, Şamaxı və Şuşada 12 ali ibtidai məktəb fəaliyyət göstərirdi, onlardan

yalnız biri qadınlar üçün idi" ("Azərbaycan tarixi", beşinci cild, səh. 194-195, B. 2001).

Beləliklə, 1914-cü ilin statistik məlumatına əsasən, Azərbaycandakı kişi gimnaziyalarında 2422, üç realnı məktəbində 1433, yeddi qadın gimnaziyasında 3158 şagird, bütövlükdə isə bütün tiplərdən olan 976 təhsil müəssisəsində 73,1 min nəfər şagird təhsil alırdı.

Şərqdə ilk demokratik, hüquqi dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti hökuməti xalq maarifinin, elm və mədəniyyətin inkişafına müstəsna əhəmiyyət verərək bu sahəni mədəni quruculuğun prioritet istiqaməti, milli dövlət siyasətinin təməl prinsiplərindən biri elan etdi, təhsil sahəsində islahatlara və təhsil quruculuğuna başladı. Hökumətin "İbtidai, ali ibtidai və ümumi orta təhsil müəssisələrinin milliləşdirilməsi haqqında" 28 avqust 1918-ci il tarixli qərarı ilə təhsil müəssisələri milliləşdirildi. Hökumət 1918-ci il noyabrın 13-də təhsil müəssisələrində tədrisin əsasən Azərbaycan dilində və həm də başqa dillərdə aparılması ilə bağlı xüsusi qərar qəbul etdi. Həmin qərarla təlim rus dilində aparılan təhsil müəssisələrində dövlət dili - Azərbaycan dili məcburi fənn kimi tədris olunmalı idi. Azərbaycan dili dövlət dili statusu qazandı, ölkənin təlim-tərbiyə, təhsil dilinə çevrildi.

1919/20-ci tədris ilinin əvvəllərində Azərbaycanda 643 ibtidai və 23 orta və orta ixtisas məktəbi fəaliyyət göstərirdi ki, müvafiq olaraq onlarda 48070 və 9611 şagird (tələbə) təhsil alırdı.

Milli hökumət əvvəlcə ölkədə ümumi icbari orta təhsilə keçidi özünün təhsil siyasətində prioritet istiqamət hesab edirdi. Ölkədə məktəb islahatı sahəsində dövlət proqramı üçün təkliflər hazırlamaq istiqamətində Xalq Maarifi Nazirliyi yanında ümumi təhsil sahəsində islahat aparmaq,

milli proqram və dərsliklər hazırlamaq məqsədilə hökumət tərəfindən xüsusi fənn komissiyaları da təsis edildi. Fənn komissiyaları tərəfindən hazırlanmış bir sıra yeni dərsliklər hökumətin ayırdığı vəsait hesabına 1919-cu ildə nəşr edilib məktəblilərin istifadəsinə verilirdi.

Lakin aprel işğalı (1920) nəticəsində süquta uğrayan Azərbaycan Xalq Cümhuriyyəti milli təhsil quruculuğu sahəsində nəzərdə tutduğu əsaslı islahatları axıra çatdıra bilmədi.

**III Müəllim:** Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xalq maarifi sisteminin yeni prinsiplər əsasında təşkili ilə təhsil tarixində yeni dövr başlandı. Bu işdə Sovet Rusiyasının təhsil modeli əsas götürüldü, vahid dünyəvi əmək məktəbi, birgə təhsil, təhsildə hüquq bərabərliyi prinsipləri ön plana çəkildi.

Azərbaycanda sovet maarif sisteminin qurulmasının hüquqi əsaslarını müəyyən edən "Köhnə orta və ibtidai məktəb tiplərini politexnik məktəblərlə əvəz etmək haqqında" dekret (1920) verildi. "Azərbaycan SSR vahid əmək məktəblərinin Əsasnaməsi" (1920, may) təsdiq edildi. Həmin Əsasnaməyə görə, ümumtəhsil məktəbləri ikipilləli (I pillə 5 illik I-V siniflər, II pillə 4 illik VI-IX siniflər) oldu. "I pillə - 5 il - ibtidai məktəb, II pillə - 4 il orta məktəb kursunu əhatə edirdi (5+4)" (M.Mextizade "Oçerki istorii sovetskoy şkolı v Azerbaydjane", str. 22. M. 1962 q). Yeni məktəblərə "vahid əmək məktəbləri" adı verildi. Az sonra Azərbaycan İnqilab Komitəsinin xüsusi dekreti (1920, dekabr) ilə Azərbaycan (türk) dili I və II pillə məktəblərində əsas tədris dili kimi təsdiq olundu.

1921/1922-ci dərs ilindən Rusiya Federasiyasında natamam orta təhsil verən iki konsentrdən (4+3) ibarət 7 illik

məktəblər yaradılmağa başlandı. Azərbaycanda ilk belə məktəb 1924/1925-ci dərs ilində Bakıda açıldı.

1920-1930-cu illərdə maarifin təməl prinsiplərindən biri əhali arasında savadsızlığı ləğv etmək sayılırdı. Bu hərəkat Xalq Maarifi Komissarlığı nəzdində yaradılmış (1920, sentyabr) Savadsızlığı Ləğvetmə üzrə Mərkəzi Komissiya tərəfindən həyata keçirilirdi.

Rusiya Federasiyası Xalq Komissarları Soveti 18 dekabr 1923-cü ildə "Vahid əmək məktəbinin Nizamnaməsi"ni təsdiq etdi. Bu sənədə əsasən I və II pillə məktəblərində təhsilalma müddəti dəyişdirildi, I pillədə 5-dən 4-ə endirildi, II pillədə 4-dən 5-ə qaldırıldı. Azərbaycanda isə bu dəyişiklik 1932/1933-cü dərs ilindən tətbiq edilməyə başlandı.

SSRİ XKS və ÜK(b)PMK "SSRİ-də ibtidai və orta məktəbin strukturu haqqında" 15 may 1934-cü ildə qərar qəbul etdi. Qərara alındı ki, "2. İbtidai məktəb - 4 sinifdən (I-IV siniflər), natamam orta məktəb - 7 sinifdən (I-VII siniflər), orta məktəb - 10 sinifdən (I-X siniflər) ibarət nəzərdə tutulsun". Bütövlükdə orta məktəbin strukturu 4+3+3 sxemi üzrə quruldu.

Bu sənədlə eyni zamanda 1934/1935-ci dərs ilindən ümumi icbari 7 illik təhsilə keçilməsi qərara alındı.

İkinci Dünya müharibəsi illəri məktəbin, maarifin, ümumiyyətlə təhsilin inkişafında ən çətin, böhranlı mərhələ oldu. 1941/1942-ci tədris ilində 3463 ümumtəhsil məktəbində 569850 şagird təhsil alırdısa, müharibənin vurduğu zərbə nəticəsində 1944/1945-ci tədris ilində məktəblərin sayı 3233-ə, şagirdlərin sayı 482720-yə enmişdi. Müharibə ümumi icbari 7 illik təhsilə keçid prosesini də ləngitdi, ümumi təhsilin səviyyəsi aşağı düşdü. Müharibədən sonrakı illərdə (1949) ümumi icbari 7 illik təhsilə keçid sürətləndirildi və bu proses 50-ci illərdə, əsasən, başa çatdı.

50-ci illərin sonlarında Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin müvafiq tezisləri əsasında Sovet dövləti 24 dekabr 1958-ci ildə "Məktəbin həyatla əlaqəsinin möhkəmləndirilməsi və SSRİ-də xalq maarifi sisteminin daha da inkişaf etdirilməsi haqqında" qanun qəbul etdi və sovet məktəbinin qarşısında yeni vəzifələr qoydu:
- şagirdləri həyata və ictimai faydalı əməyə hazırlamaq;
- ölkədə yediillik ümumi icbari təhsil əvəzinə səkkizillik ümumi icbari təhsili həyata keçirmək;
- gənclərin tam orta təhsilini təlimin məhsuldar əməklə əlaqəsi əsasında həyata  keçirmək;
- fəhlə və kəndli gənclər məktəblərinin, internat məktəblərin, günüuzadılmış məktəb və qrupların, əmək politexnik məktəblərin şəbəkəsini genişləndirmək.
Həmin vəzifələr 60-cı illərin ortalarında əsasən yerinə yetirildi.
Yeddiillik məktəblər səkkizilliyə, onillik orta məktəblər istehsalat təlimi verən onbirillik orta məktəblərə çevrildi. Orta ümumtəhsil məktəbinin strukturu 4+4+3 sxemi üzrə quruldu.
1960-1961-ci tədris ilində respublikada fəaliyyət göstərən 3837 ümumtəhsil məktəbindən 300-ü (7,8%), 1965-1966-cı tədris ilində isə 4195 məktəbdən 1881-i (44,8%) səkkizillik məktəblər idi.

SSRİ hökumətinin "Orta ümumtəhsil məktəblərinin işinin daha da yaxşılaşdırılması tədbirləri haqqında" qərarına əsasən 1966-cı ildə ümumi icbari orta təhsilə keçilməsinə başlandı. 11 illik təhsil müddəti yenidən  10 illiklə əvəzləndi. Azərbaycanda ümumi icbari orta təhsilə keçidə ötən əsrin 60-cı illərinin ortalarından başlansa da, bu ideyanın tam gerçəkləşməsi 70-ci illərdə mümkün oldu. Ümumi orta təhsil məktəbləri şəbəkəsi 1965-ci illə müqayisədə 2,6 dəfədən çox

artaraq, 765-dən 1964-ə çatdı, 1145 ibtidai məktəb natamam orta məktəbə çevrildi.

SSRİ Nazirlər Soveti 8 sentyabr 1970-ci ildə "Orta ümumtəhsil məktəbinin Nizamnaməsi"ni təsdiq etdi. Nizamnamədə orta ümumtəhsil məktəbinin strukturu haqqında belə bir müddəa öz əksini tapdı: "Yerli şəraitdən asılı olaraq ümumi orta təhsilin vahidliyini və bütün pillələrin varisliyini saxlamaqla, ayrılıqda tərkibində I-III (IV) siniflər olmaqla ibtidai məktəblər, tərkibində I-VIII siniflər olmaqla səkkizillik məktəblər, tərkibində I-X (XI) siniflər olmaqla orta məktəblər yaradılır".

SSRİ Ali Soveti 19 iyul 1973-cü ildə "SSRİ və müttəfiq respublikaların xalq təhsili haqqında qanunun əsasları"nı təsdiq etdi. Qanunla orta ümumtəhsil məktəbinin strukturu Nizamnamədə olduğu kimi qəbul edildi.

Strukturda mötərizədə göstərilən IV və XI siniflər Baltikyanı respublikaların ümumtəhsil məktəblərinə şamil edilirdi. Ötən əsrin 70-80-ci illərində respublikada aparılan genişmiqyaslı məktəb tikintisi ümumtəhsil məktəblərində tədris şəraitinin yaxşılaşmasına, tədrisin səviyyəsinin yüksəldilməsinə səbəb oldu.

1982-ci ilin sonunda Heydər Əliyevin SSRİ-nin ali rəhbərliyinə irəli çəkilməsi, dövlətin həm də təhsil siyasətinə və təhsil islahatlarına rəhbərlik etməsi ölkədə, o cümlədən Azərbaycanda ümumtəhsil məktəblərinin inkişafına və məktəb islahatlarının aparılmasına zəmin yaratdı. 1984-cü ildə SSRİ-də aparılan ümumtəhsil və peşə məktəbləri üzrə islahatın əsas istiqamətləri və strategiyasının müəyyənləşdirilməsi, həmin islahatın icra mexanizminin işlənib hazırlanması İslahat Komissiyasının sədri Heydər Əliyevin adı ilə bağlıdır. Komissiyanın hazırladığı "Ümumtəhsil və peşə məktəbi islahatının əsas

istiqamətləri"ndə nəzərdə tutulan bir çox məsələlər (6 yaşdan təhsil, 11 illik icbari orta təhsil, "Bilik günü"nün təsis edilməsi, ümumi orta təhsildə tədrisin təmayüllər və dərinləşmiş siniflər əsasında qurulması və s.) həyata keçirilsə də, sonrakı siyasi proseslər qarşıya qoyulan məktəb islahatının tam reallaşmasına imkan vermədi. Dövlət "Ümumtəhsil və peşə məktəbi islahatının əsas istiqamətləri"ndə ümumi orta təhsilin strukturunu aşağıdakı kimi müəyyənləşdirildi:
İbtidai məktəb - I-IV siniflər; natamam orta məktəb - V-IX siniflər; orta məktəb - X-XI siniflər .
SSRİ dövlətinin 1985-ci ildə xalq təhsili haqqında qəbul etdiyi qanunla ümumtəhsil məktəbinin strukturunu "Əsas istiqamətlər" də olduğu kimi təsdiq etdi.

Sovet imperiyasının süqutu və ölkəmizdə dövlət müstəqilliyinin bərpası (1991) ilə Azərbaycan tarixində ikinci dəfə təhsil sisteminin milli ənənələr, ümumbəşəri dəyərlər əsasında yenidən qurulması üçün tarixi şərait və imkan yarandı. Lakin müstəqillik ərəfəsində Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində (1988-1991) təhsildə başlanmış böhranlı vəziyyət müstəqilliyin ilk illərində Ermənistanın ölkəmizə təcavüzü səbəbindən (1991-1993) daha da dərinləşdi.

Heydər Əliyevin yenidən Azərbaycan rəhbərliyinə qayıdışı ilə təhsil, elm və mədəniyyətdə də böhranın qarşısı alındı, tezliklə ölkədə siyasi və iqtisadi sabitlik təmin olundu. Müstəqil Azərbaycan Respublikasının Konstitusiyasında (1995) təhsilin dövlətin strateji sahəsi olması bir daha təsdiqləndi, pulsuz icbari ümumi orta təhsilə dövlət təminatı verildi. Ölkədə əsaslı islahatlara başlamaq üçün iqtisadi və hüquqi baza yaradıldı.

Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyası tərəfindən "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" hazırlanıb təsdiq (1999, 15 iyun) olundu. Dövlət Proqramında milli təhsil sistemində aparılacaq islahatların konsepsiyası, uzunmüddətli inkişaf strategiyası və prioritet istiqamətləri müəyyənləşdirildi.

Azərbaycan Respublikasında milli təhsil quruculuğu sahəsində islahatlar "Azərbaycan Respublikasının təhsil sahəsində İslahatlar Proqramı" və bu Proqramın komponent və alt-komponentləri üzrə təsdiq olunmuş İnkişaf Proqramları, Azərbaycan hökuməti ilə Dünya Bankı arasında imzalanmış sazişlər əsasında hazırlanmış təhsil sektorunun inkişaf layihələri, beynəlxalq qurumlarla Təhsil Nazirliyi arasında bağlanmış sazişlər üzrə həyata keçirilən layihələr əsasında aparılır.

"Proqram"da qeyd edildi ki, "Təhsil sisteminin strukturunun yenidən qurulması təhsil sahəsində aparılan islahatların əsasını təşkil edir". Və "...təhsil sisteminin strukturunun yenidən qurulması prosesinin sürətləndirilməsini təmin etmək" bir vəzifə kimi qarşıya qoyuldu.

Hər bir dövlət mövcud cəmiyyətin müəyyən mərhələlərində ölkənin inkişaf səviyyəsindən asılı olaraq məktəb qarşısında duran məqsədləri müəyyənləşdirir. Ölkəmizdə bərqərar olan bazar iqtisadiyyatı cəmiyyətinin tələblərinə uyğun olaraq dövlətimiz tərəfindən indiki dövr və perspektiv üçün məktəb qarşısında qoyulan məqsədlər 2009-cu ildə qəbul edilmiş "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununun 4-cü maddəsinin müvafiq bəndlərində təsbit olunmuşdur:

"4.0.1. Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək;

4.0.3. sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsini... təmin etmək, təhsilalanları ictimai həyata və səmərəli əmək fəaliyyətinə hazırlamaq".

Dövlət Azərbaycan Respulikası Konstitusiyasının tələblərini yerinə yetirərək hər bir vətəndaşın təhsil alması üçün müvafiq şəraitin yaradılmasına təminat verir və təhsilin hər hansı pilləsindən, səviyyəsindən və formasından məhrum edilməsinə yol vermir.

Müstəqillik illərində ikinci dəfə - 2009-cu ildə "Təhsil haqqında" qanun qəbul edildi. Birinci qanun (1992) artıq yeni bazar iqtisadiyyatı cəmiyyətinin tələblərinə və ölkəmizin sosial-iqtisadi və mədəni inkişafına cavab vermirdi. Yeni qanunda bir çox müddəalar dəqiqləşdirilmiş, ölkəmizin inkişaf səviyyəsinə və inkişaf etmiş ölkələrin təhsil standartlarına uyğunlaşdırılmışdır. Təhsilin əsas məqsədləri, təhsilin formaları, təhsilalma formaları və s. daha dəqiq əks etdirilmişdir. Qanunda ümumtəhsil məktəbinin strukturu müəyyənləşdirilmiş, lakin təhsilalma müddəti nə səviyyələr üzrə, nə də bütövlükdə tam orta təhsil üzrə göstərilməmişdir. "19.4. Azərbaycan Respublikasında ümumi təhsil ibtidai təhsil, ümumi orta təhsil və tam orta təhsildən ibarətdir. 19.5. ümumi təhsilin təhsil səviyyələri üzrə müddəti, ... müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir". Deməli, qanun ümumtəhsil məktəbində təhsilalma müddətinin müəyyənləşdirilməsini hökumətin ixtiyarına verdi.

Respublika hökuməti 13.01.2011-ci il tarixli qərarı ilə "Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi"ni təsdiq etmiş, ümumtəhsil məktəbinin strukturu və təhsilalma müddəti hazırda mövcud olduğu kimi saxlanılmışdır: ibtidai məktəb (I-IV siniflər), ümumi orta (əsas, natamam orta) məktəb (I-IX siniflər), tam orta məktəb (X-XI siniflər. Bu struktur keçmiş SSRİ-də 1984-cü ildən keçirilən ümumtəhsil və peşə məktəbi islahatının əsas istiqamətlərində müəyyən edilmiş, 1985-ci ildə xalq təhsili haqqında qəbul edilmiş qanunla təsdiq edilmişdir. SSRİ-nin Baltikyanı respublikalarında - Latviya, Litva və Estoniyada isə orta ümumtəhsil məktəblərində təhsilalma müddəti 11 illikdən 12 illiyə keçirildi.

**IV Müəllim:** Ölkəmizin ümumtəhsil məktəbində təhsil müddətinin 12 ilə qaldırılması məsələsi təhsildə islahat başlanan anlardan qoyulmuşdu. Bu, dövrün, zamanın tələbidir. Çünki keçən dövr ərzində (1984-cü il islahatından) dünyada elmin, texnikanın və mədəniyyətin inkişafı nəticəsində elmi kəşflərin, elmi biliklərin həcmi xeyli artmışdır. Onlar haqqında zəruri məlumatların məktəb proqramlarına, dərsliklərinə gətirilməsi, 11 illik məktəbin "çərçivəsinə" sıxlaşdırılması uşaqların həddindən artıq yüklənməsinə səbəb olar, onların sağlamlığına mənfi təsir göstərə bilər.

Dünyanın və Avropanın inkişaf etmiş ölkələrində fəaliyyət göstərən 12 illik orta ümumtəhsil məktəblərinin uzunmüddətli təcrübəsi bu təhsilalma müddətinin daha optimal olduğunu çoxdan sübut etmişdir. Təsadüfi deyildir ki, dünyanın əksər ölkələrində ümumi təhsil 12 illikdir. Ölkəmizin yerləşdiyi regionda olan ölkələrdə də xeyli vaxtdır ki, 12 illik ümumi orta təhsilə keçilmişdir.

Ümumtəhsil məktəbində təhsil müddətini daha bir il uzatmağın vacibliyini nəzərə alan Rusiya hökumətinin tapşırığına əsasən keçən əsrin sonu, XXI əsrin ilk illərində Rusiya Təhsil Akademiyası bir neçə il tədqiqat apararaq aşağıdakı nəticələrə gəlmişdir:

1) hazırda təhsilalanların səhhətini pisləşdirən təlim yükünün həcmini azaltmağa imkan verəcək;

2) alınan təhsilin keyfiyyətini yüksəltməyə imkan yaranacaq;

3) yaranmış demoqrafik şəraiti nəzərə alaraq, perspektivdə maddi-maliyyə resurslarına qənaət etməyə imkan verəcək;

4) gənclərin əlavə məşğulluğunu təmin edəcəkdir (Y.M.Neymatov "Obrazovaniye v XXI veke", M. 2002., str.311).

Görəsən, sübut olunmuş bir həqiqəti bir daha sübut etməyə ehtiyac varmı?

Bunlardan başqa onu da qeyd etmək yerinə düşər ki, 12 illik təhsil tam orta təhsil haqqında attestatlarımızın xarici ölkələrdə tanınmasını təmin edəcək, struktur baxımından Avropa və dünya təhsil sisteminə inteqrasiya olunmağa təkan verəcəkdir.

"Bilik Günü" ilə əlaqədar kitabxanalarda keçiriləcək tədbirlərdən biri **"Azad olunmuş torpaqlarımız və təhsil"** adlı *oxucularla söhbət* ola bilər. İiştirakçılar ilk olaraq tədbiri təşkil edən kitabxananın oxu zalına yığışır. Tədbirin əsas mövzusu hazırkı dövrdə Respublikamızda fəaliyyət göstərən məktəblərin siyahısı, onlar haqqında qısa məlumat və öncül siyasətimiz və yenilməz ordumuz tərəfindən düşmən tapdağından azad olan torpaqlarımız barədə məlumatdır. Tədbiri açıq edən kitabxanaçı tarix müəllimlərini çıxış etməyə dəvət edir.

**Tarix müəllimi:** 2022-2023-cü tədris ilində Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki 96 təhsil müəssisəsində cari təmir və mühəndis kommunikasiya işləri həyata keçirilib.
İdarədən APA-ya verilən xəbərə görə, ehtiyac olan ərazilərdə 7 yeni məktəbin (Binəqədi qəsəbəsi, Binə, Binə Atçılıq və Qala yaşayış sahəsi, Kürdəxanı, Xocasən qəsəbəsi, Yeni Yasamal yaşayış massivi) tikintisi tamamlanıb.
2022-2023-cü tədris ilində Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki 96 təhsil müəssisəsində cari təmir və mühəndis kommunikasiya işləri həyata keçirilib.
İdarədən APA-ya verilən xəbərə görə, ehtiyac olan ərazilərdə 7 yeni məktəbin (Binəqədi qəsəbəsi, Binə, Binə Atçılıq və Qala yaşayış sahəsi, Kürdəxanı, Xocasən qəsəbəsi, Yeni Yasamal yaşayış massivi) tikintisi tamamlanıb.
Bundan əlavə, 1 məktəbdə (320) əsaslı təmir və bərpa gücləndirmə işləri, 2 məktəbdə (87, 263) köhnə korpusların sökülərək yenidən tikintisi, 1 məktəbdə isə (35) binanın sökülərək yenidən tikintisi həyata keçirilib.
BŞTİ-nin tabeliyində fəaliyyət göstərən 4 məktəbəqədər təhsil müəssisəsində (257, 277, 215, "Çiçək") əsaslı təmir işləri aparılıb. Suraxanı rayonu, Hövsan qəsəbəsində 2 yeni məktəbəqədər təhsil müəssisəsinin binası tikilərək istifadəyə verilib. Həmçinin hazırda 4 məktəbəqədər təhsil müəssisəsində (101, 99, 116, "A.Məmmədov" adına) təmir işləri aparılır, eyni zamanda 1 məktəbdə (313) əsaslı təmir işlərinə və əlavə korpusun tikintisinə başlanılıb.
2022 ci ildən Azərbaycanda 4400 ümumtəhsil müəssisəsi var. 1970-ci illərdə bu rəqəm 765 olub, 70-ci illərin sonuna qədər isə 2117-yə çatıb
1970-ci illərdə ümummili lider Heydər Əliyevin səyləri nəticəsində Azərbaycanın məktəb şəbəkəsi genişləndirilib.

**II Tarix müəllimi:** Füzuli, Cəbrayılda və Zəngilanda 960 yerlik məktəblər tikilir, bunu Elm və Təhsil Nazirliyinin təsərrüfathesablı əsaslı tikinti və təchizat idarəsinin rəis müavini Fərhan Əliyev bildirib.

Onun sözlərinə görə, həmin məktəblərdən 5-i işğaldan azad edilmiş ərazilərdə olacaq.

"Ağalı kənd məktəbindən əlavə olaraq 2022-ci ildə Tərtər rayonu, Suqovuşan kənd məktəbi əsaslı təmirdən sonra hazırlanıb. Hələ istismara verilməyib, amma açılışa hazırdır. Şuşada 1 nömrəli və Ağdam şəhərlərində 1 nömrəli 960 yerlik məktəblər tikilir. Hər ikisinin bu ilin sentyabrında təhvil verilməsi gözlənilir”,- rəis müavini əlavə edib. 2022-ci ildə 31 təhsil müəssisəsi təhvil verilib.

Həmin məktəblərdən 26-sı tikilib, 5-i isə əsaslı təmir olunub. Həmin məktəblərin içində peşə, internat, məktəbdənkənar müəssisə də olub. Əlavə olaraq da 30 modul məktəbi quraşdırılıb. Son 6 ildə isə 414 modul məktəb tikilib. Ümumilikdə Azərbaycanda 4500 məktəb var.

“Bilik Günü” ilə əlaqədar kitabxanalarda keçirilən sevilən tədbirlərdən biri də *“Mən məktəbə gedirəm”* adlı **sorğu-sualdır.** Bunun üçün məktəblilər əvvəlcədən mövzu ilə bağlı məlumatlara yiyələnib, yaxından tanış olurlar. Kifayət qədər məlumat əldə etmiş şagirdlər kitabxanaya gəlib tədbirdə iştirak edirlər. Əvvəlcə kitabxanaçı qonaqlar və iştirakçıları salamladıqdan sonra bu maraqlı tarix haqqında qısa və dəyərli məlumatlar verir.

***Kitabxanaçı:*** Belə bir deyim var: “Elə adamlar axtarın ki, onlarla söhbət yaxşı kitaba bərabər olsun. Elə kitablar da axtarın ki, mütaliəsi filosoflarla söhbətə dəysin”.

Müasir dünyada hər bir ölkənin gələcəyi təhsilin səviyyəsi ilə ölçülür. Ölkəmizdə bu istiqamətdə atılan addımlar bu fikri bir daha söyləməyə əsas verir ki, Azərbaycan öz gələcəyini daha

etibarlı və inamlı görmək əzmindədir. Hər zaman zəngin təbii sərvətləri ilə dünyanın diqqətində olan ölkəmiz bu ehtiyatlardan səmərəli istifadə etməklə insan kapitalının daha da inkişaf etdirilməsini başlıca hədəf seçib.

Təhsili cəmiyyətin inkişafetdirici qüvvəsinə çevirən amillərdən biri isə təbii ki, orta və ali təhsil müəssisələri, bu tədris ocaqlarında çalışan müəllimlərdir. Təhsillə elmin vəhdətliyini qorumaq missiyası isə ali təhsil müəssisələrinin üzərinə düşür. Hər bir təhsil ocağı özəlliyi, təhsilin keyfiyyəti, tətbiq etdiyi yenilikləri, islahatları ilə diqqət çəkir. Hər bir təhsil ocağının yetişdirdiyi şagirdlər əldə etdikləri bilik, bacarıq baxımından fərqlənsələr də, onları bir araya gətirən yeganə məqsəd malik olduqları potensial imkanlardan ölkənin gələcəyi üçün maksimum dərəcədə bəhrələnməkdir...
*Məlumatdan sonra suallar yazılı və test şəklində iştirakçılara təqdim olunur.*

**Sual 1.** .... bizim ikinci evimizdir-nöqtələrin yerinə uyğun sözü yazın.

a. Muzey
b. Məktəb
c. Nənənin evi

**Sual 2.** Məktəbə dair şeir, tapmaca və maraqlı məlumatlardan bir hissə yazın.

**Sual 3.** Oxuduğunuz məktəb hansı şəhid, ədib, tarixi və ya görkəmli şəxsiyyətin adını daşıyır? Həmin şəxsiyyət haqqında qısa məlumat yazın.

**Sual 4.** Məktəbinizin tarixi haqqında ( neçənci ildə tikilib və s.) məlumatınız varmı? Bu haqda bildiklərinizi yazın.

**Sual 5.** Elm ocağı aşağıdakılardan hansılarına aiddir?

a. PlayStation play, internet klub, teatr
b. Muzey, bağça, park,
c. Məktəb, kitabxana, ali məktəblər.

**Sual 6.** Nəyə görə müəllimlik ən müqəddəs peşə hesab olunur?

a. Bizə rəsm öyrətdiyinə görə.
b. Bizimlə söhbət etdiyinə görə
c. Bizə bilik öyrədib, kamil və elmli insan kimi yetişdiyinə görə.

**Sual: 7.** Müxtəlif adda elm ocağının adlarını sadalaya bilərsinizmi?

Azərbaycan Elmlər Akademiyası, Ali Neft Məktəbi, Bakı Dövlət Universiteti, Azərbaycan Dillər Universiteti, Bakı Mühəndislik Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti və s.

**Sual 8.** Elm nədir?

a. Elm dünya və onun necə olması haqqında yeni biliklər əldə etmək axtarışıdır. Dünyanın izahının digər yollarından fərqli olaraq elm nəzəriyyə fikirlər üzərində təcrübəyə əsaslanır.
b. Hərf öyrənmək bacarığıdır.
c. Qiraətli şeir söyləməyi bacarmaqdır.

**Sual 9.** Sizcə məktəbdən sonra ən çox biliyə harada yiyələnə bilərsiniz?

a. Həyətdə.
b. Kitabxanada.
c. Kukla teatrında.
d.

**Sual 10**. “Yollar dünyada çoxdur,
Sayı, hesabı yoxdur...

Bu şeiri xatırladınızmı? Davam edə bilərsinizmi?

**Sual 11**. Sizcə insanı uğura aparan yol hansı yoldur.

a. Məktəb yolu.
b. Cörək mağazasına gedən yol.
c. Oyun zalına gedən yol.

Cavablar: 1. B. 2. ...... 3. ........ 4. .......
5. C. 6. C. 7. ........ 8. A. 9. B. 10 A.

*Tədbirin sonunda iştirakçılar mövzuya dair şeir və maraqlı hekayələr söyləyir.*

Ağıllı insanlar üçün hər gün bilik günüdür, deyirlər bu doğurdan da belədir. Bilik insan həyatının təzahürü cəmiyyətin ən ümdə tərəqqisidir. Biliyə gedən yol da məktəbdən keçir...

Şagird məktəbə təkcə çantası dolu kitab və dəftərlə gəlmir, o, arzuları və daha çox xəyalları ilə gəlir. Hər yeni “Bilik Günü” yeni arzu, yeni sabaha olan qapı, yeni nailiyyət deməkdir. Ümid edirik ki, bu yeni tədris ili də vətənimizin gələcəyi olan uşaqlarımız üçün faydalı olacaqdır. Bütün şagirdləri bilik günü münasibəti ilə təbrik edirik!

**F.Köçərli adına Respublika Uşaq Kitabxanasının Məlumat və biblioqrafiya şöbəsinin mövzu ilə bağlı hazırladığı ədəbiyyat siyahısı**

Kitablarda

Atmaca A. Mədəni səviyyəni necə yüksəltməli. - Bakı : Altun Kitab, 2013. - 128 s.

Balasaqunlu Y. Qutadqu bilik (Səadət gətirən elm) : poema. - Bakı : Gənclik, 2003. - 404 s.

Bilik verən nağıllar : 6-8 yaş üçün. - Bakı : Altun Kitab, 2018. - 64 s.

Edvards C. Uğur qazandıran məktəblər. - Bakı : TEAS PRESS Nəşriyyat evi, 2017. - 253 s.

Əfəndizadə R. Məktəbə dəvət : Şeirlər, təmsillər, hekayələr, pyeslər. - Bakı : "TEAS PRESS" Nəşriyyat evi. "Üç alma uşaq ədəbiyyatı", 2018. - 280 s.

Əmrahlı L. Məktəbə hazırlığın psixodiaqnostikası. - Bakı : Nərgiz, 2006. - 188 s.

Əmrahov M. İ. Azərbaycanda ali məktəb quruculuğu, ali pedaqoji təhsilin və inkişafı tarixinin oçerkləri (1917-1941-ci illər) : Dərs vəsaiti. - Bakı : Mütərcim, 2007. - 142 s.

Hüseynli O. Mənim ilk əlifbam. - Bakı : Turan Nəşrlər Evi, 2010. - 36 s.

Kitabxanalar biliklər cəmiyyətində : İkidilli Azərbaycan-Rusiya layihəsi = Библиотеки в обществе знаний :

двуязычный азербайджанско-российский проект - Azərbaycan Respublikasında Rusiya Federasiyası İli (2006) çərçivəsində nəşr edilir. - Bakı : Nurlan, 2006. - 520 s.

Seyidov N. Məktəb uşağın dostudur : Uşaqlar üçün yararlı məktəbi yaratmaq yolunda əsas istiqamətverici prinsiplər. Metodik vəsait. - Bakı : [s. n.], 2006. - 60 s.

Dövrü mətbuatda

"Heydər Əliyev və Azərbaycan tarixi" VI ümumrespublika bilik yarışı // Azərbaycan Müəllimi. - 2019. - 15 noyabr. - № 43. - S. 3.

15 sentyabr Bilik günüdür // Yeni Azərbaycan. - 2012. - 15 sentyabr. - № 169. - S. 4.

Abdullayeva N. Müasir məktəb yalnız bilikverici yox, həm də inkişafetdirici funksiya yerinə yetriməlidir // Palitra. - 2014. - 15 oktyabr. - № 186. - S. 11.

Ağarzayev S. Bilik mənbəyi olan kitabları qoruyaq // Azərbaycan müəllimi. - 2009. - 13 noyabr. - N 44. - S. 6.

Araslı M. Bilik günü // İşıq. - 2019. - № 3. - S. 47-49.

Azərbaycan Prezidenti İlham Əliyev Bilik Günündə Bakının Yasamal rayonundakı 158 nömrəli tam orta məktəbin əsaslı təmir və yenidənqurmadan sonra açılışında iştirak etmişdir // Azərbaycan. - 2013. - 17 sentyabr. - № 204. - S. 1-2.

Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun təsis edilməsi haqqında Azərbaycan Respublikası

Prezidentinin Fərmanı ( 7 may 2014-cü il) // Azərbaycan. - 2014. - 8 may. - № 95. - S. 2.

Bayramlı N. Bakı Slavyan Universitetində 15 sentyabr - Bilik günü münasibətilə tədbir keçirilib // Yeni Azərbaycan. - 2016. - 16 sentyabr. - № 168. - S. 5.

Bayramov Z. Əsas məqsədimiz təhsilin keyfiyyət göstəricilərini yaxşılaşdırmaqdır : 15 Sentyabr Bilik Günüdür // Respublika. - 2019. - 15 sentyabr. - № 202. - S. 6.

Bayramova Y. 8 sentyabr - Beynəlxalq Savadlılıq Günü // Yeni Azərbaycan. - 2022. - 8 sentyabr. - № 162. - S. 8.

Bayramova Y. İlk dərs günü... : Şəhid ruhlarını yad etməklə başladı // Yeni Azərbaycan. - 2022. - 15 sentyabr. - № 167. - S. 1, 5.

Bayramova Z. Məktəb həyatına ilk çağırış - ilk zəng // Səs. - 2022. - 15 sentyabr. - № 167. - S. 7.
Bilik Fondu Azərbaycan elmini xaricdə təbliğ edir // Kaspi. - 2014. - 13-15 dekabr. - № 205. - S. 7.

Bilik günü - Sülh günü : Sentyabrın 15-də Bilik və Sülh günü münasibətilə F. Köçərli adına Respublika Uşaq Kitabxanasının təşkilatçılığı ilə Zəngilan rayon 4 nömrəli ümumi orta məktəbə 21 avqust - 21 sentyabr Sülh aylığı çərçivəsində "Bilik günü - Sülh günü" adlı tədbir keçirildi // Göy qurşağı. - 2018. - № 4. - S. 6-7.

Ələddinqızı N. Bu gün ölkəmizdə Bilik Günü qeyd olunur // Səs. - 2018. - 15 sentyabr. - № 174. - S. 9.

Əliyeva İ. Təhsilin müasirləşdirilməsi dövlət siyasətinin mühüm hədəflərindəndir : 15 sentyabr "Bilik Günü" dür // Azərbaycan. - 2014. - 14 sentyabr. - № 200. - S. 5.

Əsgərova N. "Bilik günü" qeyd edildi // Təhsil problemləri. - 2013. - 24-30 sentyabr. - № 71/72. - S. 10.

Fuad E. Kitabxanalar bir məbəddir, elm, bilik məbədi... // Kaspi. - 2014. - 9 dekabr. - № 201. - S. 15.

Görülən tədbirlərin nəticəsi həm kəmiyyətdə, həm də keyfiyyətdə özünü göstərib : Ceyhun Bayramov: "Ölkəmizi beynəlxalq bilik yarışlarında təmsil edən məktəblilərin nəticələrinin ildən-ilə yüksəlməsi bir faktdır" // Azərbaycan Müəllimi. - 2019. - 12 iyul. - № 25. - S. 4-5.

Heydər Əliyev fondunun təşəbbüsü ilə "Bilik günü" ndə bir sıra təlim-tərbiyə ocağı istifadəyə verilmişdir // Xalq qəzeti. - 2008. - 16 sentyabr. - S. 3.
Hüseynov A. Nyuton: Bilik yenilməz qüvvə, sərvət və kapitaldır // Xalq qəzeti. - 2007. - 4 fevral. - S.6.

Xəlilov Z. Bilik günü böyük təntənə ilə qeyd olundu // Respublika. - 2017. - 17 sentyabr. - № 201. - S. 6.

İbrahimov Z. Bilikli, bacarıqlı gənclər yetişdirmək əsas vəzifəmizdir // Respublika. - 2017. - 5 oktyabr. - № 216. - S. 7.

İlk zəngin sevinci : 15 sentyabr bilik günüdür // Xalq qəzeti. - 2008. - 16 sentyabr. - S. 5.

İlyasoğlu R. Uşaqların, yeniyetmələrin bilik və asudə vaxt mərkəzi : F.Köçərli adına Respublika Uşaq Kitabxanası // Respublika. - 2012. - 7 fevral. - № 27. - S. 6.

Kamal M. Təhsil bilik, uğurlu gələcək və modernləşmədir : 15 Sentyabr Bilik Günüdür // Respublika. - 2022. - 15 sentyabr. - № 199. - S. 10.

Kərimov S. Astarada III Uşaq Kitab Bilik Bayramı keçirilib // Mədəniyyət. - 2010. - 6 oktyabr. - N 69. - S. 4.

Qarayeva S. Azərbaycanda yeni dərs ili başlandı : İlk dərs "Qarabağ Azərbaycandır!" mövzusuna həsr olunub // 525-ci qəzet. - 2022. - 16 sentyabr. - № 167. - S. 7.

Qəmbərov M. Məktəb bilik və tərbiyə ocağıdır // Xalq qəzeti. - 2010. - 19 sentyabr. - N 204. - S. 5.

Mante A. Azərbaycanlı şagirdlərin riyazi bilikləri çox yüksəkdir : Bakı Fransız liseyinin direktoru cənab Alain Mante ilə müsahibə / söhbətləşdi R. Günəş // Azərbaycan Müəllimi. - 2014. - 5 dekabr. - № 47. - S. 7.

Mirzəbəyli İ. Prezident İlham Əliyev: Yalnız təhsil, bilik və texnologiya bütün bəşəriyyətin aparıcı qüvvəsidir : Azərbaycanda cəmiyyətin intelektual potensialı güclənir // Xalq qəzeti. - 2014. - 7 noyabr. - № 243. - S. 1.

Müəllimlərin bilik və səriştəsinin sınaq qiymətləndirilməsi barədə Azərbaycan Respublikası təhsil nazirinin əmri (6 may 2014 - cü il) // Azərbaycan Müəllimi. - 2014. - 9 may. - № 17. - S. 2.

Mustafaqızı N. Bakı Dövlət Universitetində "Bilik günü" // İki sahil. - 2012. - 18 sentyabr. - № 170. - S. 21.

Ömərov V. İnsanın təhsil haqqı // Səs. - 2020. - 9 may. - № 79. - S. 16.

Paşayeva P. Şagird bilik qazanmaqla yanaşı, həm də bir şəxsiyyət kimi formalaşmalıdır // Azərbaycan məktəbi. - 2012. - № 1. - S. 66-67.

Rasimqızı R. Gələcəyimizin təminatçıları: Müasir, bilikli, istedadlı gənclər // İki sahil. - 2020. - 15 fevral. - № 31. - S. 8.

Rəcəbov O. Elm, təhsil, mədəniyyətin inkişafı diqqət və qayğı tələb edir// Respublika. - 2020. - 9 fevral. - № 28. - S. 3.

Rəhimov N. Bilik var, bəs bacarıq? // Azərbaycan Müəllimi. - 2017. - 19 may. - № 18. - S. 6.

Rüstəmov F. İnsan kapitalının bilik və innovasiyalara əsaslanan inkişafında müəllimin rolu // Kurikulum. - 2017. - № 4. - S. 18-26.

Sabir. Bilik bayramı : şeir // Savalan. - 2008. - 19-22 sentyabr. - S. 1.

Sevinc. Bu gün Azərbaycanda "Bilik günü"dür // Həftə içi. - 2017. - 15 sentyabr. - № 165. - S. 6.

Sevinc. Məktəblilərin pratik bilikləri artırılır : ümumtəhsil sistemində şagirdlər elmi-tədqiqatlara cəlb olunurlar // Həftə içi. - 2018. - 16 yanvar. - № 8. - S. 6.

Sevinc. Məzunların bilik göstəricisi : Son illər imtahanlarda iştirak edən abituriyentlərin keyfiyyət göstəricisi yaxşılaşıb // Həftə içi. - 2017. - 9 iyun. - № 102. - S. 3.

Sultanova A. Milli təhsil sisteminin qurucusu // Palitra. - 2020. - 1 may. - № 32. - S. 10.

Yəhyayev E. Şagirdlərin həyəcanı, müəllimlərin gözləntisi... : 15 Sentyabr Bilik Günüdür // Azərbaycan : qəzet. - 2022. - 15 sentyabr. - № 199. - S. 16.

# Mən məktəbə gedirəm

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Aynurə Əliyeva**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**